**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**SEVİL İMAMVERDİ QIZI MƏMMƏDOVA**

# MÜASİR ŞƏRAİTDƏ DÖVLƏTİN EKOLOJİ SİYASƏTİ: FORMALAŞMASI VƏ HƏYATA KEÇİRİLMƏSİ MEXANİZMLƏRİ (AZƏRBAYCAN RESPUBLİKASI TİMSALINDA)

İxtisas: 5904.01 – “Siyasi institutlar və sistemlər”

Siyasi elmlər üzrə elmlər doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı-2018**

İş Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** Fəlsəfə üzrə elmlər doktoru, professor **Əlikram Zakir oğlu Abdullayev**

**Rəsmi opponentlər:** Siyasi elmlər üzrə elmlər doktoru, professor **Aqiyə Həbib qızı Naxçıvanlı**

Fəlsəfə üzrə elmlər doktoru, professor **Rəna Rza qızı Mirzəzadə**

Siyasi elmlər üzrə elmlər doktoru **Adil Mirabdulla oğlu Mirabdullayev**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Fəlsəfə və sosial fənlər" kafedrası

Dissertasiya işinin müdafiəsi "___" ______________ 2018-ci il tarixində, saat -da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Azərbaycan Respublikası, Bakı şəh., Lermontov küç., 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" _____________ 2018-ci il tarixində göndərilmişdir.

**BD 02.101 Dissertasiya Şurasının**

**elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru,**
**dosent S.H.ƏLİYEV**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Müasir dövrdə ekoloji amil siyasi amilə çevrilməklə getdikcə siyasətə daha çox təsir edir, digər tərəfdən, ekoloji problemlər bəşəriyyətin inkişaf paradiqmasının dəyişməsinə gətirib çıxarır, bunun isə başlanğıcı keçən əsrin 60-cı illərin sonunda, beynəlxalq birliyin həmin vaxt mövcud olan inkişaf modeli çərçivəsində həlli mümkün olmayan problemlərlə üzləşdiyi bir zamanda qoyulmuşdur.Özünün fəaliyyətində həmişə insan amilinə böyük əhəmiyyət verən dünyada tanınmış dövlət xadimi, Ümummilli liderimiz Heydər Əliyev göstərirdi: "Bu gün bəşəriyyət bir sıra qlobal problemlərlə üzləşir. Əfsuslar olsun ki, bu problemlər olduqca çoxdur: düzgün iqtisadi inkişaf strategiyalarının müəyyən edilməsindən tutmuş ta müxtəlif ekoloji məsələlərin həllinə qədər. Bu problemləri araşdırarkən hər birimiz nəzərə almalıyıq ki, dünyada gedən mürəkkəb proseslərdə bizim üçün ən böyük zinət və nemət insanın özüdür."[1]

Bütün bunlar həm qlobal, həm də milli və regional səviyyələrdə ekoloji siyasətin həyata keçirilməsini tələb edir və ayrıca olaraq dövlətin ekoloji siyasətinin, onun formalaşması və həyata keçirilməsi mexanizmlərinin kompleks şəkildə öyrənilməsini aktuallaşdırır. Məhz bu kontekstdə dissertasiya mövzusunun aktuallığını və tədqiqinin zəruriliyini aşağıdakı müddəalarla ifadə etmək olar:

- Müasir dünyada ekoloji situasiyanın daha da pisləşdiyi bir şəraitdə təbiətə antropogen təsir getdikcə artır. Yaranmış bu situasiya alimlər və mütəxəsislər tərəfindən bütün planeti əhatə edən sosial - ekoloji böhran kimi qiymətləndirilir. Məhz qlobal xarakter almış, Azərbaycanda da təzahürləri müşahidə olunan bu böhrandan çıxış yollarının axtarılmasına həsr olunmuş elmi konsepsiyaların təhlili, müasir ekoloji problemlərin siyasi proseslər kontekstində öyrənilməsi həm nəzəri, həm də praktiki əhəmiyyət kəsb edir.

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar / H. Ə. Əliyev; bur. məsul R.Ə.Mehdiyev. 46 cilddə. Kitab 41.B., Azərnəşr, 2012,488 s.S.182-184

- Əgər keçən əsrin ortalarında xüsusilə qərb ölkələrində cəmiyyət və təbiətin qarşılıqlı münasibətlərinin modeli ekologiyaya yüksək təzyiqlə, sənaye sahələrinin intensiv inkişafı ilə fərqlənirdisə, 60-70-ci illərdən başlayaraq məsələyə münasibət dəyişmiş və bu da siyasətin ekolojiləşməsinə səbəb olmaqla dövlətin ümumi siyasətinin strukturunda yeni komponentin - ekoloji siyasətin formalaşmasını şərtləndirmişdir.

- Tədqiqat üçün seçilmiş problem demokratiya yolu ilə dinamik inkişaf edən müstəqil Azərbaycan üçün də ölkənin ekoloji cəhətdən təhlükəsiz davamlı inkişafının təmin edilməsi üzrə kompleks tədbirlərin həyata keçirildiyi bir zamanda olduqca aktualdır.

- Müstəqil Azərbaycanın ekoloji siyasətinin əsasları Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, həmin siyasi kurs onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti dövlətimizin başçısı İlham Əliyev məhz bu sahənin vacibliyini vurğulayaraq deyirdi: "Ətraf mühitin qorunması da bizim üçün çox vacib məsələdir. Xüsusilə neftin qalıqları ilə çirklənmiş torpaqların təmizlənməsi, meşə təsərrüfatının bərpası və digər məsələlər öz həllini tapmalıdır... İndi biz Azərbaycanın hərtərəfli inkişafı üçün, gənc nəslin sağlam böyüməsi üçün bu sahəyə də diqqət göstərməliyik." [2]

İndiki dövrdə milli səviyyədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında böyük uğurla və özünəməxsus şəkildə reallaşan bu siyasətin mexanizmi və xüsusiyyətlərinin, bu mexanizmdə icra hakimiyyəti və bələdiyyə orqanlarının rolunun öyrənilməsi siyasi elm üçün nəzəri və praktiki maraq doğurur.

- Müasir dövlətin ekoloji siyasətinin paradiqmal əsasının formalaşmasına davamlı inkişaf konsepsiyasının təsir etdiyini göstərmək olar. Bu kontekstdə Azərbaycanın və dünya ölkələrinin davamlı inkişafa keçid təcrübəsinin tədqiq edilməsi nəzəri və praktik baxımdan əhəmiyyətlidir.

- Ekoloji problematikanın konseptual və sistemli politoloji təhlili ekoloji təhlükəsizliyin də öyrənilməsini əhatə etməlidir. Ekoloji risk şəraitində ekoloji təhlükəsizlik prioritet olmaqla, siyasi sistemin

---

[2] Bakıda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının icrasına dair illik konfransda Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // http://files.preslib.az/ site/ialiyev/2005.pdf

islahatı və inkişafında nəzərə alınması vacib olan amilə çevrilmişdir. Bu baxımdan ekoloji təhlükəsizliyi milli təhlükəsizliyin vacib tərkib hissəsi kimi nəzərdən keçirməklə, bu sahədəki siyasətin Azərbaycanın və digər ölkələrin təcrübəsi əsasında öyrənilməsi də aktuallıq kəsb edir.

- Dövlətlə yanaşı, ictimai ekoloji təşkilat və hərəkatlar, siyasi partiyalar da çıxış edir. Müstəqillik əldə olunduqdan sonra, digər postsovet dövlətlərində olduğu kimi, Azərbaycanda da ictimai ekoloji hərəkat formalaşmağa başlamış, 1993-cü ildən isə Ulu öndərimiz Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra dövlətin demokratikləşmə, vətəndaş cəmiyyətinin təşəkkülü və inkişafı istiqamətində yürütdüyü məqsədyönlü siyasətin uğurla reallaşdığı şəraitdə xeyli fəallaşmışdır. Odur ki, ictimai birliklərin dövlətin ekoloji siyasət mexanizmində iştirakının politoloji təhlilinin aparılması da zəruridir.

- Ətraf mühitin durumunun və ekosiyasi proseslərin məqsədyönlü dövlət idarəetməsi obyektinə çevrildiyi indiki şəraitdə bu sahənin idarə olunması prosesində cəmiyyətlə əks əlaqəyə nail olunmasına zəmin yaradır. Ekoloji mədəniyyət fenomeninin öyrənilməsi, onun formalaşmasına ekoloji təhsil və tərbiyənin, əhalinin ekoloji məlumatlılığının və digər amillərin təsirinin tədqiq edilməsi dövlətin ekoloji siyasətinin səmərəliliyinin təmin edilməsi baxımından vacib olmaqla xüsusi aktuallıq kəsb edir.

- Müasir şəraitdə siyasətin ekolojiləşməsinin bir aspekti də ondan ibarətdir ki, ekoloji problemlərin qlobal xarakteri onların həllində beynəlxalq əməkdaşlığın həyata keçirilməsini tələb edir. Azərbaycan Respublikasının fəal iştirak etdiyi bu əməkdaşlığın baxılan problem kontekstində öyrənilməsi əhəmiyyətlidir.

- Tədqiqat mövzusunun aktuallığı həm də onunla izah olunur ki, sosial-siyasi elmlər sistemində əsas obyektini ekosiyasi proseslər, onların milli və qlobal səviyyələrdə tənzimlənməsinə yönələn ekoloji siyasət təşkil etdiyi və müasir siyasi elmin yeni sahəsi kimi təşəkkül tapmış ekopolitologiyanın da yeri artıq müəyyən olunmuşdur. Odur ki, dissertasiyada qoyulan problemlərin siyasi elmin bu istiqamətində tətbiq olunan fənlərarası xarakterli metodologiya prizmasından araşdırılması zəruridir.

Beləliklə, yuxarıdakı müddəaların da göstərdiyi kimi, müasir şəraitdə siyasi elm çərçivəsində dövlətin ekoloji siyasətinin, onun formalaşması və həyata keçirilməsi mexanizmlərinin Azərbaycan Respublikası timsalında, digər dövlətlərin müsbət təcrübəsini də müqayisəli şəkildə nəzərdən keçirməklə araşdırılması həm nəzəri, həm də siyasi təcrübə baxımından xüsusi aktuallıq kəsb edir və bu mənada təqdim olunan dissertasiya bu sahədəki boşluğun aradan qaldırılmasında müəyyən addım kimi qiymətləndirilə bilər .

**Problemin işlənmə dərəcəsi.** Ətraf mühitin mühafizəsi problemi elmin müxtəlif sahələri ilə məşğul olan alimlərin geniş dairəsinin diqqətini cəlb etmiş və etməkdədir.

Mövzuya dair ədəbiyyatı təhlil edərkən ilk növbədə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli lider Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları və müsahibələrindən ibarət olan çoxcildli *"Müstəqilliyimiz əbədidir"* kitabının xüsusi olaraq göstərilməsini vacib hesab edirik. Burada baxılan problemlə bağlı irəli sürülmüş konseptual xarakterli dəyərli fikirlər və müddəalar mühüm əhəmiyyət kəsb etməklə, dissertasiya işinin nəzəri bazasını təşkil etmişdir [3].

Müasir mərhələdə Azərbaycanda ekoloji siyasətin həyata keçirilməsi məsələləri ilə bağlı bu sahədə Ulu öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları, nitqləri və bəyanatlarında öz ifadəsini tapmış konseptual yanaşma və müddəaların öyrənilməsində Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildlik xüsusi əhəmiyyət kəsb edir[4]. Bundan başqa, ölkəmizdə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə problemlərinin həm tarixi, həm də müasir aspektlərdən öyrənilməsinə dövlət başçımız İlham Əliyevin müəllifi olduğu "Azərbaycanın Xəzər nefti" adlı fundamental əsəri də həsr olunmaqla, tədqiqat mövzusu baxımından xüsusi elmi maraq doğurur.[5]

Azərbaycan təbiətinin, torpağının və suyunun mühafızəsi sahəsində əvəzsiz xidmətləri olan akademik Həsən Əliyevin "Həyəcan təbili" əsəri ölkəmizin təbiətinin və ətraf mühitin qorunması üçün

---

[3] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 cilddə. Bakı, Azərnəşr, 1997- 2016.
[4] Əliyev İlham. İnkişaf – məqsədimizdir. 66 cilddə.Bakı, Azərnəşr,2008-2018
[5] Алиев И.Г. Каспийская нефть Азербайджана. *М.:* Известия, 2003. 712 с.

insanlara hərarətli müraciət və çağırış olmuşdur. Onun həmmüəllifi olduğu digər əsərdə isə kənd təsərrüfatı və təbiəti mühafizə məsələləri araşdırılaraq, onların həlli ilə bağlı dəyərli tövsiyələr irəli sürülmüşdür.[6]

Tədqiqat mövzusu üzrə elmi ədəbiyyatın təhlili onun ümumi fəlsəfi-metodoloji və nəzəri aspektlərdən öyrənilməsinə həsr edilmiş əsərlərin ayrılmasına imkan verir. Bu aspektlər Azərbaycan alimlərindən R.Mehdiyevin, Ə.Həsənovun, Q.Məmmədovun, B.Budaqovun, A.Naxçıvanlının, H. Bağırovun, Z. Ağayevanın, A. Əsgərovun, D.Qənbərovun, A.Məhərrəmovun,, M.Məcidovanın, A.Şükürovun, Ə.Tağıyevin və b. əsərlərində nəzərdən keçirilir. Həmin əsərlərdə həmçinin təbii-antropogen sistemlərin tədqiqi nəticəsində bu zəmində yaranan siyasi münasibətlərin dəyişməsi zərurəti ortaya qoyulmuşdur.[7]

Akademik R.Ə.Mehdiyev özünün "Azərbaycan: qloballaşma dövrünün tələbləri" adlı kitabında qloballaşma proseslərini iqtisadi, sosial, ekoloji və digər aspektlərdən tədqiq edərkən, ekoloji sahəyə təsir edən amilləri nəzərdən keçirir, dünya miqyasında ekolji fəlakətin qarşısının alınmasına dair dəyərli mülahizələr və tövsiyələr irəli sürür.

Bu aspektdən Rusiya alimlərindən E.V.Qirusov, A.A.Qorelov, V.A.Kobılyanskiy, N.M.Məmmədov, N.N.Moiseyev, A.D.Ursul, T.Akimova və digərlərinin əsərlərini də qeyd etmək olar. Həmin əsərlərdə təbiət və ətraf mühitə texniki təsir, ekoloji təhlükəsizlik, məsələlərinin öyrənilməsinə diqqət yetirilir, lakin bu amillərin təsiri

---

[6] Əliyev H.Ə. Həyəcan təbili. 2-ci nəşr.Bakı, Azərnəşr, 1982, 175 s.

[7] Mehdiyev R.Ə. Qloballaşma dövrünün tələbləri.Bakı,YNE, 2005; Məmmədov Q., Xəlilov M. Ekologiya, ətraf mühit və insan. Bakı, Elm, 2006; Budaqov B. Ə. Dözümlü, dözümsüz təbiət. Bakı, 1990, 120 s.; **Нахичеванлы А.Г.** Политические и ценностные основания государственной власти. Дисс. на соиск. уч. степ. док полит. наук. Баку, 2003. 300 с. С.182; Şükürov A. "Cəmiyyət-təbiət" sistemi: qarşılıqlı təsir konsepsiyaları // Ekologiya, fəlsəfə, mədəniyyət. Elmi məqalələr toplusu. 24-cü buraxılış. Bakı, Elm, 2000; Nəcəfov E. Ekoloji məsuliyyət və ekoloji təhlükəsizlik // Dirçəliş XXI əsr, 2008, № 128-129 , s. 412-419; Məcidova M. Ekoloji böhran qlobal problem kimi // Dirçəliş – XX1 əsr. 2010, № 143-144. S. 235-241 və b.

altında ekosiyasi məkanların yaranması və bu məkanlarda baş verən siyasi proseslərin öyrənilməsi əhatə olunmur[8].

Elmi kateqoriya və müasir siyasi həyatın elementi kimi ekosiyasi proses və ekosiyasi məkan anlayışlarına tədqiqatçılar tərəfindən marağın göstərilməsi baxımından Rusiya alimlərindən Q.V. Kosovun, N.A.Piskulovanın, V.L.Volkovun və D.V.Afinogenovun, O.N.Yanitskinin, S.Nefyodovun və b. əsərləri diqqəti cəlb edir[9].

Ekopolitoloji problematikanın və ekoloji siyasətin öyrənilməsinə həsr edilmiş xüsusi elmi işləri olan Rusiya müəlliflərinə Y. Qolitsina, D.Qranin, A.A.Qusyev, Y.İjko, A.Kostin, N. Marfenin, S. Fomin, V.Rastorquyev, A.Rumyantsev, A.Fedoseyev, İ.Xaliy, N.V.Şulenina, A.S.Şilov, O.Yanitskiy, F.Yaroslavtsev və digərlərini aid etmək olar.[10] Həmin əsərlərdə ekoloji siyasət probleminin müxtəlif aspektləri nəzərdən keçirilir, lakin dövlətin ekoloji siyasətinin formalaşması və həyata keçirilməsi mexanizmləri, bu mexanizmlər çərçivəsində ekoloji siyast aktorlarının fəaliyyəti kompleks şəkildə öyrənilmir.[11]

Qərb tədqiqatçılarının tədqiq olunan problemin müxtəlif aspektlərinə həsr olunmuş işləri də maraq kəsb edir. Onlardan xüsusilə ekoloji modernləşmə problemlərini tədqiq edən alimlərdən

[8] Гирусов Э.В. и др. Философия экологии: общая теория экологии, геоэкология, биоэкология:учебное пособие.М.:ФАИР-ПРЕСС, 2003.192с.; Моисеев Н.Н. Избранные труды.В 2-х томах. Т.2. Междисциплинарные исследования глобальных проблем. Публицистика и общественные проблемы.М., Тайдекс Ко, 2003.264 с.; Моисеев Н.Н. Судьба цивилизации: путь разума. *М.*: Изд-во МНЭПУ, *1998.* 228 с. ; Урсул А.Д. Обеспечение безопасности через устойчивое развитие // Безопасность Евразии, 2001, № 1, с. 45–68; Акимова Т.А. и др. Экология. Природа - Человек – Техника. Учебник для ВУЗов. М.: Юнити-дана, 2001. - 343 с. и др.

[9] Косов Г.В. Экологическая составляющая политического процесса : Дис. ... д-ра полит. наук : 23.00.02 Ставрополь, 2005, 337 с. ; Косов Г.В. Экологическая детерминанта политической динамики современного общества. М.: АНМИ, 2003. 128 с. ; Пискулова Н.А. Экология и глобализация. М: МГИМО-Университет, 2010, 188 с.; Волков В.Л, Афиногенов Д.В. Экополитические пространства - новые политические измерения // Общественные науки и современность 2002, № 3.С.59-67; Нефедов С. Артикуляция интересов в экополитическом процессе// Журнал Власть, 2009, № 11,с.34-36 и др.

[10] Гусев А.А. Актуальные проблемы экологической политики современной Европы // Политика и общество, 2009, №1, с.60-63; Ижко Ю. Современное состояние биосферы и экологическая политика. СПб.: Питер, 2007. 192 с.;. Малин Я.С. Экологическая политика Китая на международном уровне // Право и политика, 2009, № 4, с. 855-861;Федосеева А Участие предприятий в реализации единой государственной экологической политики // Право и экономика.2009, № 9, С.62-65; Шилов, А. С. Экополитические аспекты экологической безопасности / А. С. Шилов // Безопасность Евразии. 2004. N 4. С. 453-461 и др.

A.Mol, R. Kollins, M.Hacer, T.Malone, V. Rosenbaum, M. Conik , R. Velford, A. Qouldson və b. əsərlərini göstərmək olar[12].

Maarten A. Hacerin "Ekoloji diskurs siyasəti: ekoloji modernləşmə və siyasi proses" adlı kitabında ekoloji siyasətdə yeni bir dil kimi "ekoloji modernləşmə"nin siyasi əhəmiyyətinin ortaya çıxmasını və artırılmasını müəyyən edir. Lakin burada ekoloji modernləşmənin indi siyasi proseslərin vacib komponenti olan ekosiyasi proseslərin inkişafına təsirini aydın şəkildə açıb göstərmir.

V. Rosenbaum "Ekoloji siyasət və siyasət" əsərində siyasətin və ətraf mühitin mühafizəsi sahəsindəki siyasətin, aparılmış işin materialının və ekoloji problemlərin balanslaşdırılmış qiymətləndirilməsinin ətraflı şərhi verilir, lakin bu zaman müəllif ekoloji siyasətin həyata keçirilməsi mexanizmində icra hakimiyyəti orqanlarının iştirakına ötəri nəzər salır.

R.Velford və A. Qouldsonun "Ekoloji menecment və biznes - strategiya" adlı əsərlərində səmərəli ekoloji qanunvericiliyə və standartlara aid olan konkret biznes-funksiyaları ayrılır, tətbiq olunacaq qanunvericilik tədbirləri təhlil olunur və biznesə yeni ekoloji standartlara uyğunlaşmaq üçün zəruri olan dəyişikliklər təsvir edilir. Bununla belə burada biznesin dövlətin ekoloji siyasətinin həyata keçirilməsində iştirakı formaları nəzərdən keçirilməmişdir.

M.Conik özünün "Profilaktik ekoloji siyasət və ekoloji modernləşmə struktur siyasətdə" adlı məqaləsində ekoloji modernləşmənin mərkəzi elementi kimi ətraf mühitin və xalqın sağlamlığının qorunmasına yönələn milli iqtisadiyyatın yenidən qurulmasına dair dövlət siyasətini nəzərdən keçirir, ekoloji modernləşmənin əsas aktorunu dövlətin təşkil etdiyini göstərirdi.

Tədqiqat mövzusuna dair elmi ədəbiyyatda konkret ölkədə bu sahədə həyata keçirilən dövlət siyasətinin öyrənilməsinə həsr edilmiş dissertasiya işləri xüsusi maraq doğurur. Belə işlər sırasında Rusiya

---

[12] Rosenbaum W. Environmental Politics and Policy. / W. Rosenbaum. -Washington: CQ Press, 2001. 404 p.; Collins R. Sociology: prescience or ant science? // American Sociological Review, February 1989. Vol. - 54.P. 124-139; Hajer M. The Politics of Environmental Discourse: Ecological Modernization and the Policy Process. / M. Hajer New York: Oxford University Press, 1996.- 332 pp.; Huber J. Die Verliorene Unschuld der Okologie: Neue Technologien und Superindustriell Entwicklung. Frankfurt am Main: Fisher Verlag, 1982; Jonicke M. Preventive environmental policy en ecological modernization find structura policy // Discussion paper. Berlin, 1985: p. 46-59; Welford R., Gouldson A. Environmental Management and Business Strategy. London: Piman Publishing, 1993. 210 pp. və b.

tədqiqatçılarından Y.S.Malin, Y.N.Yefimenko və D.S.Tonevanın dissertasiyalarını qeyd etmək olar ki, həmin işlərdə Çin və Bolqarıstanın ekoloji siyasəti, eləcə də Klinton administrasiyasının siyasəti nümunəsində ABŞ-ın ekoloji siyasəti tədqiq edilmişdir. Lakin qeyd olunan ölkələrdə dövlətin ekoloji siyasətinin tədqiqinə həsr olunmuş həmin dissertasiyalarda ekoloji siyasət mexanizmində icra hakimiyyəti orqanlarının funksional təyinafı konkretləşdirilməmiş, ekoloji siyasətin aktorları kimi vətəndaş cəmiyyətinin təmsilçiləri olan yerli özünüidarəetmə orqanları və ekoQHT-lərin iştirakı zəif işıqlandırılmış yaxud diqqətdən kənarda qalmışdır.[13]

Elmi ədəbiyyatın təhlili həm də ekoloji təhlükəsizliyə həsr edilmiş əsərlər qrupunu ayırmağa imkan verir. Azərbaycan alimlərindən Ə.Həsənov bu problemə özünün "Azərbaycan Respublikasının ekoloji təhlükəsizlik siyasəti" adlı məqaləsini həsr etmişdir.[14] Bu aspektdən Rusiya tədqiqatçılarından Q. Drobotun, N. Məmmədovun, E.Qirusovun, A.Yablokovun əsərlərini də qeyd etmək olar. Politoloqlar Y.Y.Qolitsina, L.D.Kapranova, Y.A.Maslov, N.V.Şulenina və b. sistemli yanaşma əsasında ekoloji təhlükəsizliyi cəmiyyətin siyasi sistemi, dövlətin ekoloji siyasət prioritetləri prizmasından nəzərdən keçirirlər. Ancaq bu işlərdə transsərhəd çirklənmənin bir təhdid kimi ekoloji təhlükəsizliyə təsiri, onun lokal və regional aspektləri əhatə olunmamışdır[15].

Müasir mərhələdə Azərbaycanda baxılan problemlə bağlı yazılmış dissertasiyalardan N. Kərimovanın, Ə. Şahmarovun, E. Nəcəfovun, T.

---

[13] Малин Я.С. Экологическая политика Китая: состояние, проблемы, перспективы. Дис. ... канд. политич. наук. Уссурийск, 2010 // http://www.google.ru/url; Ефименко Е.Н. Экологическая политика администрации Клинтона. Дис. ... канд. историч. наук. Томск, 2004. 221 с.; Тонева Д. С. Совершенствование экологической политики государства в условиях трансформирующейся Болгарии. Дис. ... канд. экономич. наук.// http://planetadisser.com/part/dis_212795.html и др.

[14]Həsənov Ə. Azərbaycan Respublikasının ekoloji təhlükəsizlik siyasəti // Geostrategiya.2014.№02(20).S.3-9.

[15]Дробот Г.А. Экологические проблемы как глобальная угроза безопасности // Вестник МГУ:Социология и политология.Сер.18.2009.№3,с.61-73; Гирусов Э.В. Проблемы взаимодействия общества и природы. М.: 1984,; Горелов А.А. Человек - гармония - природа. - М.: 1990; Мамедов Н.М. Экологическая политика в условиях постиндустриального общества. - М.: 2002; Шуленина Н.В. Экологическая политика современной России: от императивов к аргументам // Вестник РУДН Сер.: Политология. - 2003. - № 4 - С. 43-54; Голицына Е.Ю. Современная экологическая политика России и Франции (опыт сравнительного социологического анализа). Диссерт. на соиск. уч.степени к. полит, наук. М.,1999.170 с.

Qasımovanın dissertasiyalarını qeyd etmək olar. Həmin dissertasiyalar müasir ekoloji durum, ekoloji təhlükəsizlik və ekoloji şüurun formalaşması problemlərinin sosial-fəlsəfi aspektlərinin tədqiqinə həsr olunmuşdur. Lakin bu işlərdə ekoloji problemlərin siyasiləşməsi və onların həllinə yönələn dövlət siyasəti öyrənilmir[16].

Tədqiqat problemi kontekstində müasir şəraitdə ekoloji sahənin idarəetmə aspektlərinin nəzərdən keçirildiyi işlər də maraq kəsb edir. Bu işlərə misal olaraq S.Balaşenkonun,V.Başkinin, A.Boldin, A.Stepanovskix, A.Xaustov, V.Kuşmin, A.Muravıx və b.işlərini göstərmək olar.[17]

Bu istiqamətdə Azərbaycanda aparılmış elmi tədqiqat işləri sırasında iqtisadiyyat üzrə elmlər doktoru X. Hüseynovanın dissertasiyası qoyulan problemlər və onların həlli baxımından xüsusi maraq doğurur. Belə ki, tərəfimizdən araşdırılan problem kontekstində diqqəti cəlb edən cəhət odur ki, tədqiqatçı özünün “Azərbaycanda regional inkişafın idarə olunması problemləri” mövzusunda dissertasiya işində təklif etdiyi dayanıqlı regional inkişaf modelində sosial-ekoloji yönümlü iqtisadi meyarlar sırasında ətraf mühitin qorunması və təbiəti mühafizə meyarlarına başlıca yer verir [18].

Ölkəmizdə ekoloji problemlərin sosial-iqtisadi aspektlərinin araşdırılmasına dair elmi işlərdən T.Ağakişiyevanın müasir ekoloji reallıq şəraitində sosial-iqtisadi inkişafın xüsusiyyətlərinin nəzəri-fəlsəfi təhlilinə həsr olunmuş dissertasiyasını da göstərmək olar.[19]

Problemlə bağlı elmi ədəbiyyatın bir qrupunu da müasir dövlətin ekoloji siyasətinin paradiqmal əsasını təşkil edən davamlı inkişaf

---

[16] Kərimova N. Azərbaycanda ekoloji nəzəriyyə və onun sosial nəticələri. , Şahmarov Ə. “Davamlı inkişaf kontekstində ekoloji təhlükəsizlik problemləri (sosial-fəlsəfi təhlil)”, Nəcəfov E. “Ekoloji və hüquqi şüurun ekoloji fəallıq və məhsuliyyətin formalaşmasında rolu”, Qasımova T. “Müasir ekoloji konsepsiya və onun sosial-fəlsəfi mahiyyəti” və s.

[17] Балашенко С.А. Б 20 Государственное управление в области охраны окружающей среды. Мн.: БГУ, 2010. 341 с.; Башкин В.Н. Управление экологическим риском. М.: Научный мир. 2009, 368 с.; Гейт Н.А. Связь государственного регулирования и государственного управления в сфере природопользования и охраны окружающей среды // Журнал:Философия социальных коммуникаций. 2014. №1(26), С.107-115; Бринчук М.М. Теоретические основы экологических прав // Государство и право. М., 2004. № 5; Муравых А.И. Управление экологической безопасностью: учебное пособие. М,:Изд-во РАГС, 2006. 288; и др.

[18] Hüseynova X. M. Azərbaycanda regional inkişafın idarə olunması problemləri.İ.e.d. elmi dərəcəsi almaq üçün dissert. avtoreferatı.Gəncə, 2011.40 s.

[19] Ağakişiyeva T.S. Müasir ekoloji reallıq şəraitində sosial-iqtisadi inkişafın xüsusiyyətləri ( nəzəri-fəlsəfi təhlil).F.e.n. elmi dərəcəsi almaq üçün dissert. avtoreferatı.Bakı, 2010.20 s.

probleminin müxtəlif aspektlərinə həsr olunmuş elmi əsərlər kimi Rusiya tədqiqatçıları O.Doroninanın, O.Kuznetsovun, B.Bolşakovun, Y.Raxmaninin, A.Ursulun, N.Marfeninin, Y.Mazurovun, V.Qorşkovun R.Perelyotun, A.Katasonovun və b. işlərini göstərmək olar. Həmin əsərlərdə davamlı inkişaf konsepsiyasının formalaşması, onun əsas modelləri təhlil edilir, bu strategiyanın elmi-analitik təminatı problemləri nəzərdən keçirilir. Lakin, fikrimizcə, bu konsepsiyasının siyasi aspektlərinin əsaslandırılmasına həmin işlərdə öz əksini tapmış yanaşmaların nəzəri - politoloji baxımdan zəif işlənildiyi qeyd olunmalıdır[20].

XXI əsrdə dünya sivilizasiyası elə bir inkişaf səviyyəsinə çatır ki, burada təbii mühitə antropogen təsir cəmiyyət və təbiətin qarşılıqlı əlaqələrinin mahiyyətinə radikal şəkildə yenidən baxılmasını tələb edən templər və miqyaslar alır. Belə şəraitdə bəşəriyyət öz hərəkətlərini biosferin məhdud imkanları ilə uyğunlaşdırmaq zərurəti ilə üzləşir. Bununla bağlı alimlər tərəfindən müxtəlif nəzəri-konseptual yanaşmalar irəli sürülür. Bu baxımdan akademik Urxan Ələkbərov tərəfindən dünyada ilk dəfə olaraq irəli sürülmüş ekoloji sivilizasiya konsepsiyası xüsusi maraq doğurur. Davamlı inkişaf prinsiplərinə söykənən bu konseptual yanaşma kontekstində Azərbaycanın indiki davamlı, innovativ inkişaf mərhələsində ekoloji sivilizasiyaya keçidlə bağlı irəli sürülən müddəalar nəzəri və praktiki əhəmiyyət kəsb edir. Bu baxımdan **S.Hüseynovun** "Davamli inkişaf və ekoloji problemlər" adlı elmi məqaləsi də diqqəti cəlb edir[21].

Nəzərdən keçirilən problem üzrə elmi ədəbiyyatın təhlili ekoloji siyasətin aktorlarından biri kimi ictimai ekoloji hərəkatın siyasi aspektlərinə həsr edilmiş tədqiqatlar qrupunu da ayırmağa imkan verir.

---

[20] Марфенин Н.Н. Концепция «устойчивого развития» в развитии // Россия в окружающем мире: 2002. М.: МНЭПУ, 2012; Доронина О.Д., Кузнецов О.Л., Рахманин Ю.А. Стратегия ООН для устойчивого развития в условиях глобализации. М.: РАЕН, 20015; Перелет Р.А. Переход к эре устойчивого развития? // Россия в окружающем мире: 2003. М.: МНЭПУ, 2003 ; Кузнецов О.Л., Большаков Б.Е. Устойчивое развитие: научные основы проектирования в системе «природа—общество—человек». СПб.: Гуманистика, 20012 и др.

[21] Ələkbərov U.K. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Ali məktəblər üçün dərslik. Bakı, "Təhsil", 2013. 224 səh.; Ələkbərov U., İmanov Q. Ekoloji sivilizasiya indeksi: konsepsiya və ilk tətbiq (ing.dilində) // İnsan və biosfer (MaB, YUNESKO). Bakı, «Təhsil», 2011. 360 s.; Ələkbərov U.K. İnsan inkişafının əsasları. . Ali məktəblər üçün dərslik. Bakı, "Aspoliqraf", 2016. 280 s. **Hüseynov S.** "Davamli inkişaf və ekoloji problemlər// http://files.preslib.az/projects/azereco/az/eco_m2_1.pdf.

Bu mənada Rusiya müəlliflərindən R.C.Bukiya, Y.A.Xudorenko, Y.P.Şestakova, A.A.Şelokov və digərlərinin dissertasiyaları maraq doğurur.[22]

Qərb ölkələrində də bu problemə xüsusi elmi maraq göstərilir. Bunu Almaniya Yaşılları timsalında nəzərdən keçirmək olar. Belə ki, birləşmiş Almaniyada digər ənənəvi partiyallara nisbətən daha çox siyasi transformasiyaya uğramış "İtiifaq 90/ Yaşıllar"ın inkişafının ayrı-ayrı aspektləri tədqiqatçılar tərəfindən geniş öyrənilir ki, onlardan da T.Poquntkeni, J.Raşkeni, H.Kləynerti, K.Arzheymeri və J.Falteri, B.Templini, T.Dyurru və b. qeyd etmək olar.[23]

T. Poquntkenin və b. müəllif –tərtibçiləri olduğu "Milli Siyasi Partiyaların Avropalaşması: Güc və təşkilati uyğunlaşma" adlı əsərdə Avropa İttifaqının altı üzv dövlətlərində milli siyasi partiyalarının, o cümlədən Almaniya "İtiifaq 90/ Yaşıllar"ının mövcud problemlərinin Avropa inteqrasiya prosesləri çərçivəsində həlli məsələləri öyrənilir. Lakin bu kontekstdə aparılan araşdırmalarla milli siyasi partiyaların, o cümlədən Yaşılların ölkənin ekosiyasi məkanında yeri əhatə olunmamışdır.

Elmi ədəbiyyatın digər qrupunu isə müasir ekoloji siyasətin vacib istiqamətlərindən biri olan ekoloji mədəniyyətin formalaşması və inkişafına həsr olunmuş elmi işlər və dissertasiyalar təşkil edir. Bu mənada qoyulan problemin dissertasiya səviyyəsində araşdırılması baxımından Rusiya tədqiqatçıları M.V.Osiçenkonun, V.Q.Semenovanın, N.A.Bıkanovanın, T.A.Şamanovanın, M.İ.Barakinanın, Y.D.Qraninin və b. işlərini qeyd etmək olar. Həmin dissertasiya işlərində ekoloji mədəniyyətin formalaşması xüsusiyyətləri, bu prosesə təsir edən amillər

---

[22]Худоренко Е.А. Политическая трансформация современных экологических движений: сравнительный анализ западноевропейского и российского опыта. Дисс.. на соиск. уч.степени к. полит, наук. М., 2002. 195с.; Шестакова Е.П. Движение «зеленых» как субъект мировой политики. Автореф. дисс.на …канд. п.н. М., 2009; Щелоков А.А. Экологический лоббизм в России и Европейском Союзе: институционально-технологическое обеспечение. Автореф. дисс.на …канд. п.н. Нижний Новгород., 2010. 31 с. и др.

[23] Poguntke, T. (Ed.) The Europeanization of National Political Parties: Power and Organizational Adaptation. London end New York, 2007, 244 p.; Kleinert, H. Die Krise der Politik / H. Kleinert // Aus Politik und Zeitgeschichte. Bonn, 1992. - № 34/35. - pp. 15-25; Arzheimer, K., Falter, J. 1st der Ost wirklich rot? Das Wahlverhalten bei der Bundestagswahl 2002 in Ost-West-Perspektive / K. Arzheimer, J. Falter // Aus Politik und Zeitgeschichte. Bonn, 2002. - № 49/50. - pp. 27-35; Diirr, T. Die Linke nach dem Sog der Mitte / T. Durr // Aus Politik und Zeitgeschichte. Bonn, 2002. - № 21. - S. 3-12.

təhlil edilir. Bununla belə, fikrimizcə, bu tədqiqat işlərində dövlət səviyyəsində ekoloji mədəniyyətin formalaşması və inkişafına yönələn siyasət zəif işıqlandırılmaqla, kompleks şəkildə təqdim edilmir[24].

Mövzu ilə bağlı Türkiyədə aparılmış çoxsaylı elmi-tədqiqat işləri də xüsusi maraq doğurur. Həmin araşdırmaların istiqamətlərini Türkiyədə yerli idarəetmə orqanları və bələdiyyələrin ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin olunması sahəsində fəaliyyətini əks etdirən, həmçinin bu sahənin hüquqi tənzimlənməsinə həsr olunmuş məqalələr, kitab və elmi-tədqiqat işləri təşkil edir.

Türkiyə tədqiqatçısı Gökhan Orxan "Türkiyədə yerli idarəetmə orqanları və qlobal ekoloji problemlər, onların lokal həlli yolları və yenidən mərkəzləşmə müzakirələri" adlı kitabında bu qənaətə gəlmişdir ki, müasir dövrün ekoloji problemlərinin kompleks həlli prosesində mərkəzi icra hakimiyyəti orqanları və beynəlxalq aktorlarla bərabər, bu sahədə müxtəlif səviyyələrdə mövcud olan aktorların, xüsusilə də yerli idarəetmə orqanlarının rolu inkaredilməzdir və onların bunun üçün geniş imkanları vardır[25].

Selim Kılıç özünün "Müasir cəmiyyətə ekoloji yanaşma" adlı məqaləsində göstərir ki, müasir cəmiyyətin təbiətə qarşı yanaşması dünyanı ekoloji böhrana sürükləmişdir. Onun ətraf mühit böhranına yuvarlanmasının əsas səbəbi insanların malik olduqlari texnoloji imkanları təbiətin tarazlığını nəzərə almadan istifadə etməsidir.[26]

Problemin beynəlxalq aspektləri baxımından Şafak Kaypakın "Ətraf mühit hüququnun milli və beynəlxalq aspektləri" adlı araşdırmasını qeyd etmək olar. Burada müasir dövrdə mövcud olan ətraf mühit problemlərinin həllinin ancaq beynəlxalq səviyyədə

---

[24] Осыченко М.В.Экологическая культура в контексте современных глобальных проблем. Дисс. ... канд.философских наук. Ставрополь, 2007. 162 с.; Семенова В. Г. Экологическая составляющая политической культуры российского общества. Дисс.... канд.полит. наук. Саратов, 2004. 172 с.; Быканова Н. А. Формирование экологической культуры городского населения в современных условиях (Региональный аспект) : Дисс. ... канд. социол. наук : . Курск, 2005. 161 с.; Варакина М. И. Экологическая культура Китая: традиции философского осмысления и поиск современных решений. Дис. ... канд. философских наук. Улан-Удэ. 2003, 164 с. и др.

[25] Gökhan Orxan.Türkiye'de Yerel Yönetimler ve Çevre Küresel Sorunlar, Yerel Çözümler ve Yeniden Merkezileşme Tartışmaları.

[26] Selim Kılıç Modern Topluma Ekolojik Bir Yaklaşım Kocaeli Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (12) 2006 / 2 : 108-127; Selim Kılıç. Uluslararasi çevre hukukunun gelişimi üzerine bir inceleme// *C.Ü. İktisadi ve İdari Bilimler Dergisi, Cilt 2, Sayı 2:* 131-147.

mümkün olması qənaətinə gəlinmişdir[27]. Tədqiqat problеminin bu aspеkti baxımından Gülnur Erdoğanın ”Dövlətin ətraf mühit siyasətinin beynəlxalq hüquq baxımından dəyərləndirilməsi və ətraf mühit problemləri” adlı kitabı da maraq doğurur.

İsmail Ceritli “Urbanizasiya ilə bağlı yaranan ətraf mühit problemlərinin əsas mənbələri” adlı məqaləsində şəhərlərdə mövcud olan ekoloji problemlər və onların qaynaqları, ətraf mühitin çirklənməsini sürətləndirən amillər, həmçinin urbanizasiya prosesi nəticəsində şəhərlərin ekologiyasının korlanmasının minimuma endirilməsinin yolları araşdırılmışdır[28]. Mustafa Ökmenin isə “Texnologiya, istehlak və ətraf mühit problemləri”adlı işində müasir dövrdə güclü texnoloji inkişafın yaşandığı və bunun da qarşılaşdığımız ətraf mühit problemlərinin əsasını təşkil etdiyi məqalədə ön planda vurğulanmışdır.[29]

Təqdim olunan dissertasiyanın həsr olunduğu problemlə bağlı Türkiyə tədqiqatçısı Eyyub Zənginin siyasi elmlər doktoru elmi dərəcəsi almaq üçün «Davamlı inkişafa əsaslanan ekoloji siyasətin həyata keçirilməsində Türkiyə-Azərbaycan əməkdaşlığı (müasir dövr)» mövzusunda dissertasiya işi xüsusi maraq doğurur. Burada müəllif Azərbaycan və Türkiyənin davamlı inkişafa keçid şəraitində həyata keçirdikləri ekoloji siyasətini təhlil edir, bu sahədə onların əməkdaşlığı istiqamətlərini açıb göstərir. Bununla belə, dissertasiya işində iki ölkə arasında bu sahədəki əməkdaşlıq siyasəti çərçivəsində reallaşan layihələr, demək olar ki, müəllifin diqqətindən kənarda qalmışdır. [30]

Araşdırılan problem üzrə Türkiyədə aparılmış elmi-tədqiqat işlərini təhlil edərək, belə nəticəyə gəlmək mümkündür ki, bu ölkədə

---

[27] Şafak Kaypak. Çevre hukukunun ulusal ve uluslararası boyutları //Adıyaman Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Yıl: 5, Sayı: 10, Aralık 2012; Gülnur Erdoğan. Çevre politikalarinin ulusal ve uluslararası hukuk açısından değerlendirilmesi ve çevre sorunları.İzmir-Şubat, 2008 // *İzmir* Barosu Dergisi, Yıl: 73 Sayı: 2 Nisan 2009, Sayfa: 17-74.

[28] İsmail Ceritli Şehirleşmeye bağli çevre sorunlarini oluşturan temel kaynaklar//C:/Users/Admin/Downloads/17-3%20(1).pdf

[29]Mustafa Ökmen. Teknoloji, tüketim ve çevre sorunları // http://www.academia.edu/26053592/teknoloj%c4%b0_t%c3%9cket%c4%b0m_ve_%c3%87evre_sorunlari

[30] Zəngin E.M. Davamlı inkişafa əsaslanan ekoloji siyasətin həyata keçirilməsində Türkiyə-Azərbaycan əməkdaşlığı (müasir dövr). siyasi elmlər doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi diss. avtoref. BAKI, 2011.40 s.

dövlətin ətraf mühitin mühafizəsi siyasətinin həyata keçirilməsi daha çox yerli idarəetmə orqanlarının fəaliyyəti ilə bağlanır.

Bütövlükdə isə, problemlə bağlı elmi ədəbiyyatın təhlili göstərir ki, ekoloji və ekosiyasi problematika Azərbaycan və xarici müəlliflərin əsərlərində əhəmiyyətli yer tutur. Bununla belə, problemin müxtəlif aspektləri öyrənilsə də, siyasi proseslərin ekolojiləşməsi məsələləri, o cümlədən ekoloji təhdidlərin riskliyi və ekoloji amilin milli təhlükəsizliyin təmin edilməsinə təsiri, eləcə də siyasi qərarların qəbul edilməsində nəzərə alınması siyasi elmdə sistemli şəkildə kifayət qədər öyrənilməmişdir. Bu baxımdan təqdim edilən dissertasiya işi əhəmiyyətli olmaqla, elmi maraq kəsb edir və bu sahədəki boşluğun aradan qaldırılmasına müəyyən töhfə kimi dəyərləndirilə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatin obyektini müasir dövlətin, o cümlədən müasir Azərbaycan dövlətinin ekoloji siyasəti, bu siyasətin dövlətin ümumi siyasəti çərçivəsində formalaşması və reallaşdırılması prosesi, ekoloji siyasət aktorlarının bu sahədəki fəaliyyəti, predmetini isə müasir şəraitdə dövlətin ekoloji siyasətinin xüsusiyyətləri və əsas istiqamətləri, onun formalaşması və həyata keçirilməsi mexanizmləri, ekoloji siyasət aktorlarının fəaliyyət formaları və istiqamətləri təşkil edir.

**Tədqiqatin məqsəd və vəzifələri.** Tədqiqatin başlıca məqsədi müasir dünyada ətraf mühitin mühafizəsi problemi və onun həlli siyasətinin nəzəri-konseptual təhlilinin aparılmasından, Azərbaycan Respublikası timsalında, həmçinin bir sıra digər dövlətlərlərin təcrübəsinin müqayisəsi əsasında müasir şəraitdə dövlətin ekoloji siyasətinin məzmunu və xüsusiyyətlərinin, onun formalaşması və həyata keçirilməsi mexanizmlərinin tədqiq edilməsindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələri müəyyənləşdirilmiş və yerinə yetirilməsinə cəhd göstərilmişdir:

- müasir dünyada yaranmış ekoloji problemlər və ekoloji böhranın mahiyyətini, qlobal xarakterini, onların sosial-siyasi nəticələrini və Azərbaycanda təzahürlərini nəzərdən keçirmək, təcavüzkar Ermənistan dövlətinin Azərbaycanın işğal altında olan təbii kompleksinə qərəzli şəkildə vürduğu zərəri açıb göstərmək,;
- ətraf mühitin mühafizəsi probleminə və onun həlli siyasətinə nəzəri-konseptual yanaşmaları təhlil etmək;

- ekoloji siyasətin mahiyyətini, məqsəd və prinsiplərini müasir dövlətin ümumi siyasətinin tərkib hissəsi kimi öyrənmək;

- davamlı inkişaf konsepsiyasının əsas müddəalarını nəzərdən keçirmək, onun müasir dövlətin ekoloji siyasətinin əsaslarının formalaşmasına təsirini təhlil etmək;

- müstəqil Azərbaycanın ekoloji siyasətinin formalaşmasında Ümummilli lider Heydər Əliyevin rolunu, onun bu sahədə reallaşdırdığı siyasətin istiqamətlərini açıb göstərmək;

- Azərbaycan Respublikasında ekoloji münasibətlərin hüquqi tənzimlənməsinin siyasi aspektlərini tədqiq etmək;

- Azərbaycan Respublikasının və bəzi dünya dövlətlərinin ekoloji cəhətdən davamlı inkişafa keçid siyasətini və bu sahədəki təcrübəsini müqayisəli şəkildə təhlil etmək;

- müasir mərhələdə davamlı inkişaf şəraitində Azərbaycan Respublikasının ekoloji siyasətinin məzmunu və prinsiplərini, əsas istiqamətlərini, onun reallaşması xüsusiyyətlərini açıb göstərmək;

- ekoloji təhlükəsizliyin təmin edilməsini dövlətin milli təlükəsizlik siyasətinin əsas tərkib hissəsi kimi öyrənmək, Azərbaycana qarşı Ermənistanın işğalçılıq siyasətinin nəticələrinin milli və regional ekoloji təhlükəsizliyə təsirini səciyyələndirmək;

- Azərbaycan Respublikasında ətraf mühitin mühafizə və təbiətdən istifadə sahəsində icra hakimiyyəti orqanlarının funksional təyinatı və vəzifələrini açıb göstərmək, onların reallaşması istiqamətlərini nəzərdən keçirmək,;

- əhalinin ekoloji mədəniyyətinin mahiyyətini, onun formalaşması prosesini, bu prosesə təsir edən amilləri dövlətin ekoloji siyasəti kontekstində təhlil etmək;

- bu prosesdə əhalinin ekoloji təhsili və tərbiyəsinin rolunu açıb göstərmək, cəmiyyət üzvlərinin ekoloji məlumatlılığı səviyyəsinin ekoloji mədəniyyətin formalaşmasına təsirini öyrənmək;

- dövlətin ekoloji siyasət mexanizmində onun digər aktorlarının - bələdiyyələrin və ictimai birliklərin iştirakı sahəsində Azərbaycan Respublikasında və digər dövlətlərdə toplanmış təcrübəni təhlil etmək;

-müasir şəraitdə Azərbaycanda ictimai ekoloji hərəkatın xüsusiyyətlərini təhlil etmək, onun inkişaf perspektivlərini nəzərdən keçirmək və s.

**Tədqiqatın nəzəri və metodoloji əsasları**. Tədqiqatın nəzəri bazasını ilk növbədə problemlə bağlı Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxış və nitqlərində irəli sürülmüş dəyərli fikirlər və konseptual müddəalar, həmçinin görkəmli alimlərin bu sahədəki fundamental əsərləri, onlarda özünün ifadəsini tapmış nəzəri yanaşmalar və konsepsiyalar, elmi müddəalar təşkil edir.

Araşdırılan problemin xarakteri nəzərə alınaraq dissertasiya tədqiqatı politologiyanın anlayış aparatı və metodlarının digər yaxın elmi istiqamətlərlə qarşılıqlı əlaqəsini nəzərdə tutan fənlərarası metodoloji yanaşma əsasında aparılmışdır. Bundan çıxış edərək dissertasiyada tədqiq olunan problemə sistemli və kompleks yanaşma çərçivəsində analiz, sintez, indüksiya, deduksiya, ümumiləşdirmə kimi ümummәntiqi metodlardan, institusional, struktur-funksional və müqayisəli politoloji təhlil, həmçinin empirik materialın təhlilinə yönəlmiş sənədlərin təhlili, statistik təhlil, kontent-analiz və digər elmi araşdırma metodlarından istifadə olunmuşdur.

Sistemli yanaşmanın tətbiqi qlobal ekoloji situasiyanın inkişafı problemlərinin, qlobal miqyaslı, regional və milli səviyyədəki ekoloji problemlərin qarşılıqlı əlaqədə təhlil edilməsinə imkan vermişdir. İnstitusional və struktur-funksional təhlil metodlarından istifadə olunması zərurəti ekoloji siyasət aktorlarının – dövlətin, vətəndaş cəmiyyətinin təmsilçiləri olan bələdiyyələr və ictimai ekoloji birliklərin, siyasi partiyaların, beynəlxalq strukturların ekoloji siyasət mexanizmində rolu və imkanlarının öyrənilməsi zərurəti ilə bağlı olmuşdur. Müqayisəli politoloji təhlil metodu vasitəsilə tədqiqatın gedişində aparılan təhlillərlə əhatə olunmuş həm Azərbaycanın, həm də xarici ölkələrin həyata keçirdikləri ekoloji siyasət kurslarına, bu məsələlərlə məşğul olan dövlət orqanları və ictimai birliklərin fəaliyyətinə, bu sahədə keçirilmiş beynəlxalq forumların nəticələrinə müqayisəli nəzər salmaqla,bu təhlillər əsasında müxtəlif aspektlər üzrə ümumiləşdirmələr aparılmışdır.

**Tədqiqatın empirik bazasını** ekologiya sahəsində Azərbaycan Respublikasının və digər dövlətlərin əsas rəsmi sənədləri və qanunvericilik aktları; Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları; dövlət, bələdiyyə orqanları və ictimai strukturların cari arxiv sənədləri; universal və regional xarakterli beynəlxalq

normativ – hüquqi aktlar, ikitərəfli və çoxtərəfli səviyyələrdə bağlanmış müqavilə və sazişlər; müəllifin keçirdiyi sosioloji tədqiqatların nəticələrini əks etdirən materiallar; internet materialları və s. təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya tədqiqatının elmi yeniliyi ilk növbədə problemin qoyuluşundan irəli gəlir. Burada tədqiq olunan problemin bir sıra aspektlərinə müəllif baxışı təqdim olunur. Dissertasiya işi ekoloji problemlər və onların həllinin siyasi aspektlərinin, müasir şəraitdə dövlətin ekoloji siyasətinin istiqamətlərinin, bu siyasətin formalaşması və həyata keçirilməsi mexanizmlərinin geniş elmi ədəbiyyat və mənbələrin təhlili, Azərbaycan Respublikası və bəzi digər dövlətlərin bu sahədəki təcrübəsinin müqayisəli öyrənilməsi əsasında və Azərbaycan siyasi elmində problemin məhz bu cür qoyuluşda dissertasiya səviyyəsində araşdırılmasına həsr olunmuş ilk sistemli və kompleks xarakter daşıyan tədqiqat işidir.

Daha konkret olaraq dissertasiyanın elmi yeniliyini tezis şəklində aşağıdakı müddəalarla ifadə etmək olar:

- dissertasiya tədqiqatında qlobal ekoloji böhran və onun müasir Azərbaycanda təzahürləri, onların sosal-siyasi aspektləri ətraflı nəzərdən keçirilir, milli və qlobal səviyyələrdə ekoloji böhran problemlərinin artan siyasiləşməsi prosesi səciyyələndirilir;
- Azərbaycan siyasi elmində işlənilməyən və ümumiyyətlə, müasir siyasi elmdə hələki az istifadə olunan "ekosiyasi proses", "ekosiyasi məkan", "ekoloji dövlət" və s. kimi anlayışlardan istifadə olunmaqla, onların mahiyyəti açılıb göstərilir;
- ekoloji amilin şərtləndirdiyi ekosiyasi məkanların qlobal, regional və milli səviyyələrdə yaranması, onların qarşılıqlı əlaqələri mənzərəsi təsvir edilir;
- müasir şəraitdə ekosiyasi məkanlar çərçivəsində yaranmış münasibətlərin tənzimlənməsinə yönələn ekoloji siyasətin dövlətin ümumi siyasətinin strukturunda yerinin politoloji təhlili aparılır, onun formalaşması və həyata keçirilməsi mexanizminin modeli təqdim olunur;
- Ümummilli lider Heydər Əliyevin sovet dövründə reallaşdırdığı gələcəyə hesablanmış ətraf mühitin mühafizəsi siyasətinin istiqamətləri, onun müstəqil Azərbaycanın məqsədyönlü

ekoloji siyasətinin formalaşmasında rolu və uğurla həyata keçirdiyi bu siyasətin xüsusiyyətləri açılıb göstərilir;

- Azərbaycan Respublikası timsalında dövlətin ekoloji siyasətinin formalaşması, inkişaf etdirilməsi və reallaşdırılmasında hüquqi tənzimlənmənin siyasi əhəmiyyət kəsb etdiyi, dövlətin bu sahədə ardıcıl və səmərəli fəaliyyət həyata keçirmək üçün siyasi iradəsinin olması və bunun ilk növbədə öz ifadəsini ekoloji qanunvericilikdə tapması göstərilir;
- Azərbaycan Respublikasının və bir sıra digər dövlətlərin təcrübəsinin təhlili əsasında müasir siyasi prosesin tərkib hissəsi kimi çıxış edən ekosiyasi prosesrin məzmunu açıqlanır, bu prosesin əsas aktorları - siyasi sistemin institusional strukturunun komponentlərini təşkil edən dövlət, yerli özünüidarəetmə orqanları, siyasi partiyalar və ictimai birliklərin ekoloji siyasət mexanizmi çərçivəsində fəaliyyətləri prizmasından bu mexanizmin siyasi sistemin işləməsinə təsiri göstərilir;
- Azərbaycan Respublikasında ekoloji siyasətin həyata keçirilməsinə məqsədli-proqram yanaşmasının səmərəli təcrübə olması ekoloji sahənin dövlət proqramları vasitəsilə idarə edilməsinə dair geniş faktiki materialların ətraflı təhlili əsasında göstərilir;
- işdə ekoloji təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi nəzərdən keçirilməklə, regional və qlobal təhlükəsizlik kontekstində öyrənilir, Ermənistan dövlətinin təcavüzkarlıq siyasəti çərçivəsində qərəzli şəkildə Azərbaycana qarşı törətdiyi transsərhəd çirklənmələrin bütün regionun ekosistemi üçün təhdid olduğu əsaslandırılır;
- Azərbaycanın işğal altında olan ərazilərində təbii kompleksinə qarşı ekoloji soyqırım (ekosid) siyasəti yürütdüyünə görə Ermənistanın beynəlxalq təşkilatların iştirakı ilə məsuliyyətə cəlb olunması mexanizmi təklif olunur (cinayət məsuliyyətinə cəlb edilməsi, ona qarşı sanksiyaların tətbiqi, Azərbaycana kompensasiyanın ödənilməsi və s.);
- işdə Azərbaycan Respublikasında dövlətin ekoloji siyasətinin həyata keçirilməsində vətəndaş cəmiyyəti institutları və vətəndaşların, yerli icmaların geniş iştirakına əlverişli şəraitin yaradılması və dövlət qayğısı bu sahənin idarə edilməsinə sinergetik yanaşmanın təzahürü kimi aşkarlandırılır;

- dünya ölkələri və Azərbaycanın təcrübəsinin təhlili əsasında ictimai birliklərin ekoloji siyasət aktoru kimi fəaliyyəti nəzərdən keçirilir,Yeni Azərbaycan Partiyasının, Heydər Əliyev Fondunun, İDEA-nın ekoloji siyasətin həyata keçirilməsinə töhfəsi xüsusi olaraq açılıb göstərilir, bununla yanaşı ölkəmizdə bütün şəraitin yaradıldığına baxmayaraq ekoloji ictimai birliklərin – "yaşılların" hələki böyük siyasətdə iştirak etmək bacarığına malik olmadıqları göstərilir;

- Azərbaycanda əhalinin ekoloji məlumatlılığının dövlətin ekoloji siyasətinin vacib tərkib hissəsi kimi təmin edilməsində yerli və respublika səviyyəsində çıxan qəzetlər timsalında KİV-in fəallıq dərəcəsi aşkarlanır, ictimai birliklərin, İDEA-nın bu istiqamətdəki, eləcə də əhalinin ekoloji mədəniyyətinin formalaşmasına yönələn məqsədyönlü fəaliyyəti təhlil edilir və s.

**Müdafiəyə çıxarılan müddəalar:**

- ekoloji problemlərin kəskinləşməsi müəyyən məkanda gərginliyin yaranmasına səbəb olmaqla, ekoloji amilin vətəndaş-hakimiyyət münasibətlərinə təsir etməklə siyasiləşməsini, digər tərəfdən, siyasi prosesin ekolojiləşməsinin baş verdiyi ekosiyasi məkanın yaranmasını şərtləndirir;

- müasir cəmiyyətdə siyasi prosesin ekolojiləşməsinin baş verdiyi ekosiyasi məkanda ekoloji təhlükəsizliyin təmin edilməsi milli təhlükəsizliyin vacib komponenti olmaqla siyasi problemə çevrilir;

- transsərhəd çirklənmə kontekstində ekoloji problemlər regional siyasi proseslərin amili kimi çıxış edir və bu mənada təcavüzkar Ermənistan dövləti işğal etdiyi ərazilərdə Azərbaycanın təbii kompleksinə qarşı ekosoyqırım siyasəti yürüdür;

- Ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra müstəqilliyin ilk illərində dövlətin müxtəlif növ çirklənmələrlə ayrı-ayrılıqda epizodik şəkildə həyata keçirdiyi mübarizə tədbirləri onun rəhbərliyi altında vahid konsepsiyaya əsaslanan və çoxməqsədli fəaliyyət sistemindən ibarət olan kompleks xarakterli ekoloji siyasətin aparılması ilə əvəz olunmuşdur.

- Azərbaycan Respuplikasının təcrübəsi göstərir ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir mərhələdə onun layiqli siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla reallaşan dövlətin ekoloji siyasəti siyasi praktikanın nisbətən sərbəst bir sahəsini təşkil edir;

- Azərbaycanın bu sahədəki təcrübəsi həm də göstərir ki, səmərəli ekoloji siyasətin vacib şərtlərindən birini hakimiyyətin bu siyasəti həyata keçirmək üçün siyasi iradəsinin olması, digər tərəfdən isə, dövlət tərəfindən ekosiyasi proseslərin aktorlarının fəaliyyəti və əməkdaşlığı üçün ölkədə əlverişli mühitin yaradılması təşkil edir;

- Müstəqil Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində düşünülmüş fəaliyyətin həyata keçirilməsi üçün dövlətin siyasi iradəsinin olması öz ifadəsini bu sahədə müvafiq hüquqi bazanın yaradılmasında tapmışdır (müvafiq Konstitusiya müddəalarının təsbit edilməsi, qanunlar və digər normativ aktların qəbul edilməsi);

- müasir dövlətin ekoloji siyasətinin əsasları dünya birliyi tərəfindən qəbul olunmuş davamlı inkişaf konsepsiyasının təsiri altında formalaşmış, Azərbaycan Respublikası da hədəf kimi davamlı inkişaf məqsədlərinə qoşulmuşdur;

- Azərbaycanda ekoloji siyasətin həyata keçirilməsinə məqsədli-proqram yanaşması tətbiq olunur, ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsinin milli və dövlət proqramları vasitəsilə idarə edilməsi təcrübəsi uğurla öz səmərəliliyini göstərir;

- müasir dövlətin ekoloji siyasətinin vacib istiqamətini əhalinin ekoloji mədəniyyətinin formalaşması və ekoloji məlumatlılığının artırılması təşkil edir, onun aktorlarından biri kimi ictimai birliklər çıxış edir və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya tədqiqatının nəzəri əhəmiyyəti ondan ibarətdir ki, burada irəli sürülmüş müddəalar və əldə olunmuş nəticələr bu istiqamətdə daha dərin elmi axtarışların aparılması üçün zəmin ola bilər.

Tədqiqatın materiallarından, nəzəri və praktiki əhəmiyyət kəsb edən nəticələrindən müvafiq dövlət orqanları və bələdiyyələr, ictimai təşkilatlar tərəfindən, ali məktəblərdə siyasi elm çərçivəsində müvafiq kursların tədrisində, eləcə də baxılan problematika üzrə proqramlar və dərsliklərin hazırlanmasında, elmi konfransların keçirilməsində, məruzə və monoqrafiyaların işlənilməsində istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının“Politologiya və siyasi idarəetmə”, “Dövlət qulluğu və kadr siyasəti ” və “Davamlı

inkişafın planlaşdırılması və idarə ediməsi” kafedralarının birgə iclasında müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir.İşin əsas məzmunu və müddəaları müəllifin DİA-da bakalavr pilləsində “Siyasi ekologiya”, magistraturada “Ekoloji təhlükəsizlik” fənlərinin tədrisində, DİA-da icra hakimiyyəti orqanları və bələdiyyələrin ekologiya məsələləri ilə məşğul olan işçiləri üçün keçirilən ixtisasartırma kurslarında ətraf mühitin mühafizəsinin siyasi aspektləri üzrə oxuduğu mühazirələrində, dissertasiya mövzusuna həsr olunmuş monoqrafiyasında, Azərbaycanda və xaricdə dərc olunmuş elmi məqalələrində, Respublika və beynəlxalq elmi-praktiki konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi giriş, dörd fəsil, on beş yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, probleminişlənmə dərəcəsi təhlil edilir, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri haqqında geniş məlumat verilir, nəzəri-metodoloji əsasları, elmi yeniliyi, müdafiəyə çıxarılan müddəalar, işin nəzəri və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın birinci fəsli **“Müasir dünyada ətraf mühitin mühafizəsi problemi və onun həlli siyasəti: nəzəri-konseptual təhlil”** adlanır və üç yarımfəsildən ibarətdir.

Birinci fəslin **“Qlobal ekoloji böhran və onun Azərbaycanda təzahürü: problemin sosial-siyasi aspektləri”** adlı birinci yarımfəslində müasir dünyada yaranmış qlobal ekoloji böhran və onun Azərbaycanda təzahürləri, onların sosial-siyasi aspektləri, dövlətin ümumi siyasətinin strukturunda ekoloji siyasətin yeri təhlil edilir, problemə nəzəri-konseptual yanaşmalar nəzərdən keçirilir. Burada müəllif tərəfindən qlobal ekoloji böhranın mahiyyəti və komponentləri, müasir qlobal ekoloji problemlər, eləcə də Azərbaycan Respublikasında hələ Sovet dövründən toplanıb qalmış, həmçinin Azərbaycan torpaqlarının 20%-ni işğal etmiş təcavüzkar Ermənistan dövləti tərəfindən həmin ərazilərdə təbii kompleksin vəhşicəsinə

ekosoyqırıma məruz qalması, Xəzərin ekoloji problemləri ətraflı təhlil olunur.

Bu məsələlər siyasi elmin vacib kateqoriyası olan siyasi məkan kontekstində nəzərdən keçirərək qeyd olunur ki, ekoloji problemlər insanları müəyyən coğrafi məkanda birləşdirərək heç də həmişə rəsmi sərhədləri nəzərə almadan fəal hərəkətlərə sövq edir ki, bu da yeni siyasi birliklərin və siyasi məkanların – ekoloji məkanların formalaşmasına gətirib çıxarır. Böhranlı ekoloji situasiyaları əks etdirən kəskin məsələlərin ortaya çıxması ekosiyasi məkanın yaranmasının başlıca şərtini təşkil edir.

Beləliklə, müasir dünyada qloballaşma və lokallaşma prosesləri qlobal, regional və yerli ekosiyasi məkanların yaranması ilə müşayət olunur və indiki şəraitində ekoloji problematika siyasiləşməklə siyasi prosesin yeni növü – ekosiyasi proseslərin yaranmasını şərtləndirir.[31]

Ekoloji problemlərin kəskinləşməsi dünya birliyində siyasi iqlimin pisləşməsinə səbəb olmaqla bəşəriyyətin bundan sonra mövcudluğunu təhlükə altına alır . Bu problemlərin həlli bütün dövlətlər və xalqların, beynəlxalq birliyin birgə səylərini tələb edir. Bunlar isə müasir ekoloji problemlərin və ekolji böhran fenomeninin siyasi müstəvidə öyrənilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini göstərir və milli, regional və qlobal miqyasda səmərəli və ardıcıl eкoloji siyasətin həyata keçirilməsini zəruri edir. Digər tərəfdən, yaranmış belə şərait ekoloji təhlükəsizlik problemini milli təhlükəsizliyin vacib tərkib hissəsi kimi nəzərdən keçirməklə önə çəkilməsini tələb edir.

Bu yarımfəsildə müəllif müasir qlobal ekoloji böhranın aradan qaldırılması zərurətindən çıxış edən və bunun yollarını təklif edən elmi yanaşmaları nəzərdən keçirir, ümumiləşdirərək onların müddəalarını təqdim edir.

Dissertasiyanın birinci fəslinin ikinci yarımfəsli **“Ekoloji siyasətin müasir dövlətin ümumi siyasətinin strukturunda yeri”** adlanır. Bu yarımfəsildə dövlətin ümumi siyasətinin strukturunda ekoloji siyasətin yeri, dövlətin bu istiqamətdəki siyasətinin əsaslarının formalaşmasına davamlı inkişaf konsepsiyasının təsiri təhlil edilir, bu məsələlərlə bağlı müəllif tərəfindən ümumiləşdirilmiş mülahizələr irəli

---

[31] Нефедов С. Артикуляция интересов в экополитическом процессе // Власть. 2009. № 11. с. 34-36. с. 34

sürülür. Vurğulanır ki, XX əsrin ortalarında bir neçə onillik ərzində sənayeləşmə modelinin sürətlə inkişafı bütün inkişaf etmiş ölkələrdə ətraf mühitin görünməmiş tənəzzülünə gətirib çıxardı. Eyni zamanda, məhz bu ölkələr ilk olaraq qeyd etmişlər ki, yaşayış mühitinin insan üçün əlverişli vəziyyəti yüksək keyfiyyətli həyatın elementlərindən birini təşkil edir. Belə şəraitdə inkişaf etmiş ölkələrdə keçən əsrin 70-ci illərində ekoloji sahədə böhranlı hadisələrin artması fonunda ekoloji siyasətin dövlət siyasətinin müstəqil bir elementinə (hərbi, mədəni, iqtisadi, sosial, elmi-texniki, informasiya siyasəti və s. yanaşı) çevrilməsi baş vermişdir.

Burada müəllif N. Reymersə istinad edərək, ekoloji siyasəti bir neçə səviyyədə nəzərdən keçirməklə , dövlətin ekosiyasəti ilə yanaşı, həm də onun lokal, regional və beynəlxalq – qlobal səviyyələrdə növlərini ayırır.

Müsbət təcrübəyə malik olan inkişaf etmiş ölkələrin – ABŞ -ın, Qərbi Avropa ölkələrindən Almaniyanın, Fransanın, Norvecin, Yaponiyanın ekoloji siyasət sahəsindəki təcrübəsi təhlil edilir, inkişaf etmiş ölkələrin ekoloji siyasətinin indiki mərhələsində qarşıya qoyulan məqsədin məhz çirklənmənin qarşısının alınması , ətraf mühitin çirklənməsi ilə mübarizəni bu çirklənmənin mənbələrində aparılmasından ibarət olduğu göstərilir.

Beləliklə, ekoloji siyasət istənilən müasir dövlətin ümumi siyasətinin vacib tərkib hissəsini təşkil edir və məsələnin siyasi mahiyyəti ilk növbədə ondan ibarətdir ki, bu siyasətin həyata keçirilməsi yaxud keçirilməməsi vətəndaşların dövlət hakimiyyəti orqanlarına münasibətinə öz təsirini göstərir.

Təhlillər göstərir ki, birincisi, inkişaf etmiş ölkələrin ekoloji siyasətinin indiki mərhələsində qarşıya qoyulan məqsəd məhz çirklənmənin qarşısının alınması , ətraf mühitin çirklənməsi ilə mübarizəni bu çirklənmənin mənbələrində aparılmasından ibarətdir; ikincisi, müasir dövlətin ekoloji siyasətinin inkişaf dinamikasında onun iştirakçıları dairəsinin genişlənməsi tendensiyası müşahidə olunur ki, bu da onların əməkdaşlığının ekoloji siyasətin səmərəliliyi amillərindən biri kimi əhəmiyyətini daha da artırır; üçüncüsü, ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin , bu sahədəki dövlət proqramları və sosial layihələrin həyata keçirilməsinə

vətəndaş cəmiyyətinin institutları və çirkləndirən təsərrüfat subyektləri, o cümlədən özəl sektor geniş cəlb olunmalıdır.

Birinci fəslin **“Müasir dövlətin ekoloji syasətinin əsaslarının formalaşmasına davamlı inkişaf konsepsiyasının təsiri”** adlı üçüncü yarımfəslində dünya inkişafının paradiqmal əsaslarından birinə çevrilmiş davamlı inkişaf konsepsiyasının yaranması və inkişafı, reallaşması prinsipləri nəzərdən keçirilir, Roma klubunun məruzələri, BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Komissiyasının hesabatı, davamlı inkişafla bağlı beynəlxalq forumların materialları təhlil olunur, bu sahədə qəbul olunmuş beynəlxalq sənədlərin siyasi əhəmiyyəti açılıb göstərilir. Vurğulanır ki, Rio-da 1992-ci ildə qəbul olunmuş“ XXI əsr Gündəliyi”ndən fərqli olaraq Yohannesburq Sammitinin qəbul etdiyi “Yüksək səviyyədə qəbul olunmuş qərarların yerinə yetirilməsi Planı”nda ilk dəfə olaraq dünya birliyinin davamlı inkişafa irəliləməsinin zaman intervalları (müddətləri) müəyyən edilmişdir. Rio-da 1992-ci ildə qəbul olunmuş qərarları genişləndirərək təsdiq edən Yohannesburq Konfransı dünya birliyinin inkişafında yeni mərhələ açmışdır.

BMT-nin bu məsələlərlə bağlı növbəti “Rio+20” Forumu 20-22 iyun 2012-ci il tarixlərində yenə Braziliyanın paytaxtı Rio-de-Janeyroda keçirilmişdir. Bu Forumun keçirilməsinin vacibliyi həmin dövdə dünyada yaranmış situasiyadan da irəli gəlirdi: dünya əhalisinin sayı 7 milliarda çatmış, 2050-ci ilə isə 9 milliard olacağı gözlənilir, təxminən 1 milliard insan hər gün aclıq keçirir, atmosferə atılan istixana qazlarının həcmi artmaqda davam edir və, əgər iqlimin dəyişməsi prosesini dayandırmaq mümkün olmazsa, bütün növlərin üçdə birindən çoxu məhv olunma təhlükəsi altındadır[32].

Belə şəraitdə ”Bizim istədiyimiz gələcək” devizi altında keçən bu Forumda başlıca mövzular kimi, texnoloji proseslərin təkmilləşdirilməsinə, “yaşıl” iqtisadiyyata keçid, yoxsulluğun aradan qaldırılması və davamlı inkişaf mövzuları müzakirəyə çıxarılmış, qəbul olunmuş yekun sənəddə davamlı, sabit inkişafa , sosial və iqtisadi tərəqqiyə ətraf mühitin mühafizəsi şərti ilə keçid prinsipləri müəyyən olunmuşdur. Bu sənədə əsasən 2015-ci ilə davamlı inkişaf

[32] Что такое Рио+20? // http://www.un.org/ru/sustainablefuture/about.shtml

Məqsədlərinin işlənilməsi də nəzərdə tutulmuşdur[33]. Beləliklə də, "Bizim istədiyimiz gələcəyə" nail olunması mexanizmləri kimi 2000-ci ildə qəbul olunmuş Minilliyin inkişafı Məqsədləri BMT-nin 25 sentyabr 2015-ci il tarixində Nyu-Yorkda keçirdiyi davamlı inkişaf üzrə Sammitində qəbul olunmuş 17 davamlı inkişaf Məqsədləri ilə əvəz olunmuşdur. Bu yeni Məqsədlər davamlı inkişafın iqtisadi, sosial və ekoloji elementlərinin qarşılıqlı əlaqələrini nəzərdə tutur[34]. Əgər Minilliyin Məqsədləri ilk növbədə inkişafda olan ölkələrdə sosial vəzifələrin həllinə yönəlmişdirsə, davamlı inkişafın yeni Məqsədləri bütün dünyaya şamil edilir və bu baxımdan beynəlxalq birliyin gözləntiləri yeni Məqsədlərin dünyanı daha təhlükəsiz, əlverişlı və ədalətli gələcəyə aparacağından ibarətdir. Bu zaman davamlı inkişaf konsepsiyasının müddəalarına müvafiq milli ekoloji siyasət strategiyalarının xüsusiyyətləri təhlil edilir.

Beləliklə, bu yarımfəsildə belə qənaətə gəlinir ki, müasir dövlətin ekoloji siyasətinin paradiqmal əsaslarının formalaşmasına öz təsirini göstərən davamlı inkişaf konsepsiyasının reallaşması, bu sahədə yaranan problemlərin müəyyən texnologiyalardan istifadə etməklə aradan qaldırılması iqtisadi, sosial, ekoloji və idarəetmə sistemlərinin qarşılıqlı asılılığının nəzərdən keçirilməsini tələb edir.

Dissertasiyanın ikinci fəsli **"Azərbaycan Respublikasının ekoloji siyasət strategiyası və onun müasir mərhələdə reallaşması xüsusiyyətləri "** adlanır və 5 yarımfəsildən ibarətdir.

Fəslin birinci yarımfəsli **"Müstəqil Azərbaycanın ekoloji siyasətinin konseptual əsaslarının formalaşmasında Heydər Əliyevin rolu"** adlanır. Bu yarımfəsildə Ümummilli lider Heydər Əliyevin həm sovet dövründə ətraf mühitin mühafizəsi sahəsində həyata keçirdiyi gələcəyə hesablanmış siyasəti, həm də müstəqil Azərbaycanın ekoloji siyasətinin formalaşmasında rolu açılıb göstərilir. Qeyd edilir ki, hələ Sovet dövründə Azərbaycana rəhbərlik etdiyi zman Ulu öndər ölkədə ekoloji məsələlərin həllinə böyük diqqət yetirir, o cümlədən, Xəzər dənizinin çirklənməsinin qarşısının alınması, ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə,

---

[33] «Какие изменения претерпела окружающая среда: от Рио до Рио+20». Публикация ЮНЕП // Ноосфера. Общество. Человек Электронный научный журнал. 2012, № 6 ; Итоги Саммита «РИО+20» // https://riss.ru/analitycs/2568/

[34] Цели устойчивого развития // http://www.globalcompact.ru/index/czeli-ustojchivogo-razvitiya.html

su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, meliorasiya və su təsərrüfatı, içməli su təchizatı sisteminin yenidən qurulması, Bakı şəhəri və Abşeron yarımadasının su təchizatının yeni mərhələsinin başlanması, Bakıya Kür çayından su kəmərlərinin çəkilməsi, bütövlükdə Bakının içməli su təchizatı sisteminin inkişaf etdirilməsi, Bakı və Abşeron yarımadasında geniş yaşıllaşdırma işlərinin aparılması, yeni park və xiyabanların, yaşıllıq zolaqlarının salınması, təbiət qoruqlarının sayının artırılması, kadrların ekoloji biliklərinin formalaşdırılması, zəngin hüquqi bazanın yaradılması tədbirləri uğurla reallaşdırılmışdır.

Goründüyü kimi, Ulu öndər Heydər Əliyevin ölkədə sovet dövründə həyata keçirdiyi gələcəyə hesablanmış ekoloji siyasət öz məntiqi davamını müstəqillik illərində yenidən hakimiyyətə qayıtdıqdan sonra reallaşdırdığı ekoloji siyasət strategiyasında tapmışdır. Belə ki, Ümummilli liderimiz 1993-cü ilin yayında ölkə rəhbərliyinə qayıtdıqdan sonra yaratdığı ictimai-siyasi sabitlik şəraitində ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik məsələlərini yenə ön plana çəkmiş, onun rəhbərliyi altında bu sahədə həyata keçirilən siyasət dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil etmişdir. Bu baxımdan daha konkret olaraq Ümummilli lider Heydər Əliyevin reallaşdırdığı ekoloji siyasətin aşağıdakı istiqamətlərini ayırmaq olar:

- mətni Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi altında işləyən Dövlət Komissiyası tərəfindən hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasına ətraf mühitin mühafizəsi və ekoloji hüquqlarla bağlı xüsusi müddələrın daxil edlməsi;
- Heydər Əliyevin ölkədə uğurla apardığı struktur islahatları çərçivəsində dövlət ekoloji idarəetmə sicteminin təkmilləşdirilməsi, Azərbaycan Respublikası Prezidentinin 23 may 2001-ci il tarixli Fərmanı ilə Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin bazasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması;
- ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizlik və təbii ehtiyatlardan səmərəli istifadə sahəsinin Milli və Dövlət Proqramları vasitəsi ilə idarə edilməsi;

- ölkədəki qoruq və yasaqların, yaşıllıqların ərazilərininngenişləndirilməsi, milli parkların yaradılması tədbirlərinin həyata keçirilməsi ;

- Ekologiya sahəsində beynəlxalq əməkdaşlığın təşkili, ölkədə ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizlik və əhalinin sağlamlığının yaxşılaşdırılması sahəsində Azərbaycanın bir sıra beynəlxalq Konvensiyalara qoşulması və s.

Bu fəslin **"Azərbaycan Respublikasında ekoloji münasibətlərin hüquqi tənzimlənməsinin siyasi aspektləri "** adlı ikinci yarımfəslində göstərilir ki, Azərbaycan Respublikasında ekoloji qanunvericiliyin inkişafının hazırkı mərhələsinin başlanğıcı Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkədə ekoloji qanunvericiliyin yeni prinsipial əsaslarının qoyulması məqsədilə həyata keçirilən hüquqi islahatlar prosesi zamanı qoyulmuşdur.Müstəqilliyin ilk illərində formalaşdırılmış ekoloji qanunvericiliyin əsas çatışmazlıqlarından biri burada təsbit olunmuş prinsip və müddəaların reallaşdırılması mexanizminin olmaması və bununla da bu qanunvericiliyin yalnız bəyanat xarakterli olması idi. Bu baxımdan qeyd olunmalıdır ki, Heydər Əliyevin ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik strategiyası çərçivəsində ekoloji qanunvericiliyin formalaşdırılması və inkişafı məhz onun reallaşdırılması mexanizmlərinin də yaradılması ilə birlikdə nəzərdən keçirilirdi ki, bu da onu əvvəlki yanaşmalardan fərqləndirirdi. Ümumiyyətlə, Azərbaycanın müasir ekoloji qanunvericilik sistemi 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş və ölkədə ekoloji münasibətlərin hüquqi tənzimlənməsinin əsasını təşkil edən Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq müddəalarına əsaslanır. Ümumiyyətlə, Azərbaycanın müasir ekoloji qanunvericilik sistemi 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş və ölkədə ekoloji münasibətlərin hüquqi tənzimlənməsinin əsasını təşkil edən Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq müddəalarına əsaslanır.

Ekoloji münasibətlərin formasından asılı olaraq tədqiqatçılar bütün ekoloji qanunvericilik sistemini iki altsistemə bölürlər: birincisi, təbiəti mühafizə edən qanunvericilik aktları, yəni ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təminatı sahəsində münasibətləri tənzimləyən normativ-hüquqi aktlar; ikincisi, təbii ehtiyatlara dair

qanunvericilik aktları, yəni təbiətdən istifadəyə dair qanunvericilik aktları. Azərbaycan Respublikasının müasir ekoloji qanunvericilik sistemində mərkəzi yeri ətraf mühitin qorunmasının hüquqi, iqtisadi və sosial-siyasi əsaslarını müəyyən edən əsas normativ akt - 1999-cu il iyunun 8-də Ümummilli lider Heydər Əliyevin imzası ilə qəbul edilmiş "Ətraf mühitin mühafizəsi haqqında" Qanun tutur. Bu Qanunun məqsədi ətraf mühitin ekoloji tarazlığı sahəsində ekoloji təhlükəsizliyin təmin edilməsi, təsərrüfat və digər fəaliyyətlərin təbii ekoloji sistemlərə ziyanlı təsirinin aradan qaldırılması, bioloji müxtəlifliyin qorunması və təbiətdən rasional istifadənin təmin edilməsidir

Təhlillər əsasında müəllif göstərir ki, Azərbaycan Respublikasının ekoloji qanunvericiliyində siyasi aspektlər baxımından, birincisi, dövlətimizin ardıcıl və səmərəli ekoloji siyasət həyata keçirmək üçün siyasi iradəsi öz ifadəsini tapır; ikincisi, vətəndaşlara ekoloji əhəmiyyətli qərarların qəbul edilməsi və həyata keçirilməsində iştirak etmək üçün hüquqi imkanlar yaradılır; üçüncüsü, ekoloji qanunvericilik cəmiyyətin ekoloji və iqtisadi maraqlarının balanslaşdırılmasına yönəlir; dördüncüsü, burada dövlətin bu sahədəki siyasətinin istiqamətləri, dövlət və vətəndaşların, ictimai birliklərin qarşılıqlı münasibətləri çərçivəsində dövlətin vəzifələri, vətəndaşların və ictimai təşkilatların hüquqları müəyyən edilir; beşincisi, qanunvericiliklə müəyyən olunmuş normalar və tələblərin icrasına dövlət təminatı verilir ( dövlət idarəetməsi; ekoloji ekspertiza; iqtisadi stimullaşdırma; çirkləndirən obyektin fəaliyyətinin məhdudlaşdırılması, dayandırılması və ya xitam verilməsi; ekoloji nəzarət və məsuliyyətə cəlbetmə; ekoloji tərbiyə və təhsil); altıncısı, bu sahədə dövlətin beynəlxalq əməkdaşlıq mexanizmi müəyyən edilir.

İkinci fəslin **"Ekoloji cəhətdən davamlı inkişafa keçid siyasəti: dünya dövlətləri və Azərbaycanın təcrübəsi"** adlı üçüncü yarımfəslində davamlı inkişaf bəşəriyyətin inkişaf ssenarilərinin seçilməsi və reallaşmasında özündə iqtisadi, ekoloji və sosial komponentləri birləşdirən sistemli yanaşmanın həyati vacibliyinin dərk olunmasını əks etdirən yeni inkişaf paradiqması kimi xarakterizə olunur. Qeyd edilir ki, XX əsrin sonunda dünya birliyi tərəfindən qəbul olunmuş davamlı inkişaf konsepsiyası bu sahədə milli strategiyaların, indikatorların, ekoloji monittornq , ekspertiza; milli

səlahiyyətlər çərçivəsində çıxmış məsələlər üzrə beynəlxalq konsepsiyaların qəbul edilməsi , qlobal ekoloji fondun yardımı və s. vasitəsilə reallaşdırılır[35].Daha sonra Avropa İttifaqının, ABŞ, Kanada, Avropa ölkələrindən Almaniyanın Böyük Britaniya İtaliya, eləcə də Çin, Rusiya kimi dövlətlərin davamlı inkişafla bağlı qəbul etdikləri proqramlara, bu istiqamətdə gördükləri işlərə müqayisə əsasında nəzər salınır, Azərbaycanın bu sahədəki təcrübəsi təhlil edilir, uğurları açılıb göstərilir.

Vurğulanır ki, bütün dünyada olduğu kimi, zəngin təbii sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik ölkə olan Azərbaycanda da ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa söykənən ekoloji siyasət geniş vüsət almaqla dövlət idarəçiliyinin bütün sahələrini əhatə edən kompleks bir mexanizmə çevrilmişdir. Ulu öndərimizin 18 fevral 2003-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram mütərəqqi bəşəriyyətin qəbul etdiyi dayanıqlı inkişaf konsepsiyasının prinsiplərinin həyata keçirilməsinə xidmət etməklə ölkədə həyata keçirilən ekoloji siyasətin, demək olar ki, bütün aspektlərini özündə əks etdirmişdir.[36] Milli Proqramın məqsədi Azərbaycan Respublikasında indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunmasından və təbii ehtiyatlardan səmərəli istifadə edilməsindən ibarət olmuşdur. Həyata keçirilməsi kompleks yanaşmaya əsaslanan Milli Proqramda müəyyən olunmuş məqsədlərə uyğun olaraq bir-biri ilə qarşılıqlı əlaqədə olan ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması üçün iqtisadi və insan potensialının idarə edilməsinin müvafiq üsullarından istifadə edilməsi; indiki və gələcək nəsillərin rifahının yaxşılaşdırılmasını təmin edən, stimullaşdıran iqtisadi modellərin, texnologiyaların yaradılması və istifadəsi və s. kimi vəzifələr qarşıya qoyulmuşdur.

Ulu öndərimiz Heydər Əliyevin başladığı bu strateji xətt onun layiqli siyasi varisi, dövlətimizin başçısı cənab İlham Əliyev

---

35 Гуськова Н.Д., СалимоваТ.А., Красовская И.Н. Программно-целевое регулирование устойчивого развития и повышения конкурентоспособности региона / / / http:// institutiones.com // general 2638_...html

36 Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial—iqtisadi inkişafa dair" Milli Proqramın təsdiq edilməsi haqqında " 18 fevral 2003-cü il tarixli 1152 nömrəli Sərəncamı// " Azərbaycan" qəzeti, 19 fevral 2003-cü il.\

tərəfindən zənginləşdirilərək daha böyük vüsətlə davam etdirilir. Müasir mərhələdə Azərbaycanda Prezidenti İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan-2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasında əsas hədəflərdən biri kimi ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaq müəyyən olunmuşdur [37]. Konsepsiyada müəyyən olunmuş həmin hədəflərə müvafiq olaraq ölkəmizdə uğurla reallaşan innovativ inkişaf strategiyası çərçivəsində ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olunması istiqamətində nəzərdə tutulan tədbirlər məqsədyönlü şəkildə həyata keçirilir.

Belə şəraitdə bu sahədə ölkəmizin yerinə yetirdiyi vəzifələr, birincisi, dünya ölkələrinin təcrübəsini öyrənməklə davamlı inkişafın iqtisadi, sosial və ekoloji komponentləri arasında balansın əldə olunmasına, ikincisi, ölkədə ardıcıl və məqsədyönlü şəkildə aparılan ekoloji siyasət çərçivəsində “yaşıl iqtisadiyyat”ın inkişaf etdirilməsinə nail olmaqdan ibarətdir.

Bu kontekstdə davamlı inkişafa keçidin idarə edilməsi prosesinin əsas aktorları kimi beynəlxalq təşkilatlar, milli, regional və yerli hakimiyyət orqanları, biznes-təşkilatlar, qeyri-kommersiya təşkilatları, eləcə də vətəndaş cəmiyyəti və onun bu prosesdə iştirak edən fəal nümayəndələri çıxış edirlər. Əlbəttə, məhz həmin aktorlar arasında qarşılıqlı əlaqələrin qurulması və onların əsas iştirakçısı olduğu səmərəli çoxaktorlu tərəfdaşlıq modelinin mövcud olması davamlı inkişafa keçidin idarə edilməsinin uğurlu olmasının vacib şərtlərindən biridir.

Bu fəslin **“Müasir mərhələdə Azərbaycan dövlətinin ekoloji siyasəti və onun həyata keçirilməsi mexanizmi”** adlı dördüncü yarımfəslində göstərilir ki, Azərbaycan Respublikasının bütün sahələrdə indiki yüksəliş illəri dövründə geniş sosial-iqtisadi islahatlara söykənən ümumi inkişaf konsepsiyasında ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərin xalqın rifahının yaxşılaşması naminə istifadəsi məsələləri mühüm yer tutur. Öz fəaliyyəti ilə Heydər Əliyev siyasətinə sadiqliyini təsdiq edən və bu siyasəti bütün istiqamətlər üzrə uğurla və

[37] Azərbaycanda Prezidenti İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan-2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası // www.president.az/files/future_az.pdf

zənginləşdirilmiş şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkədə ətraf mühitin qorunmasını daima diqqət mərkəzində saxlayır. Azərbaycan dövlətinin müasir ekoloji siyasətinin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir.[38]

Vurğulanır ki, müasir dövrdə Azərbaycan dövlətinin həyata keçirdiyi ekoloji siyasət özünəməxsus xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər ölkədə həyata keçirilən ekoloji siyasətin reallığa əsaslandığını, dinamikliyini, operativliyini, kompleks xarakterli olduğunu özündə ifadə edir. Bu baxımdan Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair Kompleks Tədbirlər Planın təsdiq edilməsi haqqında" 28 sentyabr 2006-cı il tarixli Sərəncamının xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olunur, onun həyata keçirilməsi istiqamətində görülmüş işlər ətraflı təhlil olunur.

Ekoloji duruma yoxsulluğun təsir etdiyini vurğulayan akademik R.Mehdiyev dünya təcrübəsini nəzərdən keçirərək göstərmişdir ki, "kütləvi yoxsulluğun artması təkcə inkişafda olan ölkələrin sosial durumunda öz əksini tapmır. Bu, həm də qlobal ekologiya sahəsinə də mənfi təsir edir. Çünki yoxsulluq bir çox ölkələrdə təbiətdəki tarazlığın pozulmasının həm səbəbi, həm də nəticəsidir".[39] Məhz bu amil nəzərə alınaraq ekologiya sahəsindəki prioritet istiqamətlər ölkə Prezidentinin 15 sentyabr 2008-ci il tarixli, 3043 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda ekoloji siyasət sahəsindəki prioritet istiqamətlər bir daha konkretləşdirilərək müəyyən olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkədə kompleks şəkildə həyata keçirilən ekoloji siyasət çərçivəsində yaşıllaşdırma, xüsusi mühafizə olunan ərazilərin qorunması və genişlənməsinə böyük diqqət yetirildiyi qeyd olunur, həyata keçirilən ardıcıl dövlət siyasəti sayəsində hazırda ölkədə 9 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir, bu

[38] http://www.eco.gov.az/es-esasistiqametler.php
[39] Mehdiyev R.Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: Yeni Nəşrlər evi, 2005.S.136

ərazilərin ümumi sahəsi 1990-cı ilə nisbətən 2,4 dəfə artaraq,indi ölkə ərazisinin 10,3 faizini təşkil edir. Ölkəmizdə uğurla həyata keçirilən ekoloji siyasət çərçivəsində atmosfer havaya atılan çirkləndirici maddələrin miqdarı da xeyli azalmışdır: stasionar mənbələrdən ölkənin atmosfer havasına atılan çirkləndirici maddələr 2015-ci ildə 1990-cı ilə nisbətən 12 dəfə azalaraq cəmi 178,0 min ton təşkil etmişdir[40].

Vurğulanır ki,müasir şəraitdə Azərbaycan dövlətinin ekoloji siyasətinin həyata keçirilməsində su hövzələrinin sosial-ekoloji problemlərinin həll edilməsinə xüsusi əhəmiyyət verilir. Ölkəmizin ən böyük çayları olan Kür və Araz Ermənistan və Gürcüstanın yaşayış məntəqələri və sənaye obyektlərindən təmizlənmədən axıdılan tullantı sularla çirkləndirilir. Xüsusilə bu çaylar Azərbaycana qarşı işğalçılıq siyasəti yürütməkdə davam edən Ermənistan dövləti tərəfindən qərəzli şəkildə kəskin çirkləndirilir. Bundan başqa, işğal altında olan ərazidə yerləşən Sərsəng su anbarından Azərbaycana qarşı ekoloji terror vasitəsi kimi istifadə olunur, eyni zamanda qəsdən zəhərli tullantılarla çirkləndirilir. Bütün bunlar nəzərə alınaraq əhalinin ekoloji təmiz su ilə təmin edilməsi probleminə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən xüsusi diqqət yetirilir, Kür, Araz və digər çaylar üzərində sutəmizləyici qurğular quraşdırılır, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2007-ci ildən başlayaraq regionlarda modul tipli sutəmizləyici qurğuların quraşdırılması hesabına içməli su təchizatı sistemi qurulmuş, bu istiqamətdə görülən tədbirlər Prezidentin 24 fevral 2017-ci il tarixli Sərəncamına müvafiq olaraq uğurla davam etdirilir.

Göstərilir ki, dövlətin ekoloji siyasəti çərçivəsində reallaşan prioritet vəzifələri həmçinin tullantıların idarə olunması və vaxtilə neft sənayesinin törətdiyi ekoloji problemlərin aradan qaldırılması təşkil edir, artıq, neftlə çirklənmiş ərazilərin bir hissəsi tamamilə təmizlənmiş, burada gözəl parklar, yaşıllıq zonaları salınmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev ətraf mühitin qorunması məsələsinə konseptual yanaşma tətbiq edir. Məhz bu yanaşmanın təzahürü olaraq dövlətimizin başçısı İlham Əliyev 2010-cu ili "Ekologiya ili" elan etmişdir.Ölkə əhalisinin fəal iştirakı ilə keçmiş "Ekologiya ili" əlamətdar və gələcəyə hesablanmış strateji xəttin

[40] http://www.stat.gov.az/source/environment/

təməlini təşkil edən bir il olmaqla, dövlətimizin ekoloji siyasətində prioritetlərin müəyyən edilməsi üçün zəmin olmuşdur.

Qeyd olunanlarla yanaşı bu yarımfəsildə Azərbaycanın ayrı-ayrı regionlarında, o cümlədən Bakı, Sumqayıt, Gəncə, Naxçıvan Muxtar Respublikasında və digər bölgələrdə ekoloji siyasətin yerinə yetirilməsi təhlil edilir, görülən tədbirlər nəzərdən keçirilir.

Azərbaycan dövləti tərəfindən ekologiya və əhalinin sağlamlığının qorunması məsələlərinə göstərilən böyük diqqətin yetirilməsini ölkədə təbiətin mühafizəsinə çəkilən xərclərə dair statistik göstəricilər də təsdiq edir. Həmin məlumatların təhlili göstərir ki, bu xərclər on il ərzində - 2000-2013-cü illərdə 22 dəfə artırılaraq 18188,0 min manatdan 398188 min manata çatdırılarılmış, sonrakı illərdə də bu tendensiya saxlanılmışdır[41].

Göründüyü kimi, Azərbaycanın müasir sürətli inkişaf mərhələsində Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimiz davamlı inkişaf prinsiplərinə əsaslanan ardıcıl və məqsədyönlü ekoloji siyasət həyata keçirir. Heç təsadüfi deyil ki, ABŞ-ın Yel Universiteti nəzdindəki Ekoloji siyasət və Hüquq Mərkəzinin (Yale Center for Environmental Law and Policy) metodikası üzrə keçirilmiş tədqiqatın 2016-cı ildə açıqlanmış yekunlarına əsasən Ekoloji səmərəlilik indeksi üzrə dünya ölkələrinin reytinq siyahısında Azərbaycan MDB ölkələri arasında birinci olaraq 180 ölkə içərisində 83,78 indeksi ilə 31-ci yeri tutmuşdur ki, bu da ölkəmizdə ekoloji siyasətin səmərəli şəkildə aparıldığını bir daha təsdiq edir.

Beləliklə, sürətli sosial-iqtisadi və davamlı inkişaf sahəsində yüksək nailiyyələri ilə dünya dövlətləri arasında layiqli yer tutan müasir Azərbaycanda ətraf mühitin mühafizəsinə böyük əhəmiyyət və diqqət verilir, bu sahədə dünya təcrübəsi, elmi nailiyyətlər nəzərə alınaraq, özünün universallığı, sistemliliyi, elmiliyi, beynəlxalq əmədaşlığa açıqlığı ilə digər ölkələr üçün də örnək ola biləcək ekoloji siyasət strategiyası həyata keçirilir və bu siyasət sosial-iqtisadi inkişaf siyasəti ilə paralel və vəhdətdə aparılır. Bütün bunlar isə, bütövlükdə, indiki və gələcək nəsillərin maraqlarına, onların sağlamlıq və rifahına xidmət edir. Ən başlıcası odur ki, digər sahələrdə olduğu kimi, ətraf muhitin mühafizəsi sahəsində də dövlət siyasətinin reallaşmasına

[41] http://www.stat.gov.az/source/environment/

dövlət başçısı tərəfindən bilavasitə olaraq rəhbərlik və nəzarət edilir. Bu baxımdan müəllif Prezident yanında ekologiya məsələlərinə həsr olunmuş xüsusi müşavirələrin keçirilməsi təcrübəsinin xüsusilə əhəmiyyətli olmaqla öz səmərəsini verdiyini, ekologiya sahəsində bu məqsədlərə ayrılmış büdcə xərclərindən tutmuş ölkə Prezidenti İlham Əliyevin bilavasitə diqqət mərkəzində saxladığı dövlət tədbirləri kompleksini, onun rəhbərliyi altında dövlətimizin məqsədyönlü şəkildə həyata keçirdiyi ekoloji siyasətin xüsusiyyətlərini nəzərdən keçirərək, Azərbaycanın ekoloji dövlət quruculuğu yolunda olduğunu da göstərir.

İkinci fəslin **"Ekoloji təhlükəsizliyin təmin olunması dövlətin ekoloji siyasətinin vacib tərkib hissəsi kimi"** adlı beşinci yarımfəslində göstərilir ki, müasir dövrdə həm qlobal, həm də milli və regional səviyyələrdə ətraf mühitin mühafizəsi ilə yanaşı ekoloji təhlükəsizliyin təmin edilməsi həyata keçirilən ekoloji siyasətin vacib komponentini təşkil edir. Mahiyyət baxımından milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsini təşkil edən ekoloji təhlükəsizlik şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli ekoloji maraqlarının daxili və xarici təhdidlərdən qorunması və müdafiəliliyi durumu olmaqla, ona olan təhdidlər öz növbəsində milli təhlükəsizliyə təhdidlər sisteminə daxildir. Bu zaman müəllif tərəfindən Azərbaycan Respublikasının milli təhlükəsizliyin tərkib hissəsi kimi ekoloji təhlükəsizlik məsələlərinə geniş yer verilmiş "Milli təhlükəsizlik haqqında" Qanununun , eləcə də Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Milli təhlükəsizlik Konsepsiyası"nın müvafiq müddəaları ətraflı təhlil edilir.

Qeyd olunanlar əsasında dövlətin ekoloji siyasətinin vacib komponenti kimi ekoloji təhlükəsizliyin təmin olunması məsələləri regional və qlobal ekoloji təhlükəsizlik kontekstində nəzərdən keçirilir, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli təhlükəsizliyinə, həm də Cənubi Qafqazda regional ekoloji təhlükəsizliyə böyük təhdid olduğu əsaslandırılır, zəbt etdiyi Azərbaycanın tarixi ərazilərində təbii kompleksi amansızcasına məhv və talan etdiyinə, xalqına qarşı olduğu kimi, təbiətimizə qarşı da ekosoyqırım (ekosid)siyasətini həyata keçirdiyinə, işğal altında olan ərazidə yerləşən Sərsəng su anbarı

vasitəsilə Azərbaycana qarşı ekoloji terror törətdiyinə görə təcavüzkar Ermənistan dövlətinin,onun rəhbərlərinin beynəlxalq təşkilatların iştirakı ilə cinayətə cəlb olunması, ona qarşı müvafiq sanksiyaların tətbiq edilməsi və ölkəmizə vürulan zərərin kompensasiyası tələbinin beynəlxalq səviyyədə irəli sürülməsinin zəruri olduğu göstərilir. Bundan başqa, burada Ermənistanın nasaz vəziyyətdə olan Metsamor atom elektrik stansiyasının da regionun ekoloji təhlükəsizliyə ciddi təhdid olduğu, bu məsələlərdə beynəlxalq birliyin ikili standartlara yol verdiyi qeyd olunmuşdur.

Sonda müəllif belə qənaətə gəlir ki, bütövlükdə, Cənubi Qafqaz regionunda yaranmış ekoloji vəziyyət və mövcud ekoloji problemlər həm regional, həm də milli səviyyədə ciddi narahatlıq doğurur. Odur ki, region dövlətlərində istər iqtisadi, istərsə də siyasi-idarəçilik fəaliyyətlə bağlı qərarların qəbul olunmasında, eləcə də prioritetlərin müəyyən edilməsində ekoloji təhlükəsizlik prinsipi üstünlük təşkil etməli, bu sahədəki regional əməkdaşlıq genişlənməklə mövcud ekoloji problemlərin həllinə xidmət etməlidir.

Dissertasiyanın üçüncü fəsli **“Dövlətin ekoloji siyasətinin həyata keçirilməsi mexanizmində icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının rolu ”** adlanır və 4 yarımfəsildən ibarətdir.

**“Azərbaycan Respublikasında ətraf mühitin mühafizə sahəsində icra hakimiyyəti orqanlarının əsas funksiyaları, onların reallaşması təcrübəsi”** adlı birinci yarımfəsildə icra hakimiyyəti orqanlarının bu sahədə əsas funksiyaları və vəzifələri, onların reallaşması təcrübəsi bir sıra dünya dövlətləri və Azərbaycan Respublikasının timsalında müqayisəli təhlil olunur. Vurğulanır ki, by сащядя исра щакимиййяти органларынын funksional təyinatı ганунверичилийя мцвафиг олараг илк нювбядя онларын цзяриня гойулан тябияти мцщафизя вя тябиятдян истифадяйя дювлят вя сащя идаряетмяси вязифяляри вя функсийаларынын йериня йетирилмясиндян ибарятдир. Qanunvericiliyin təhlili onlardan aşağıdakıları ayırmağa imkan verir: normayaradıcılığı; ekoloji fəaliyyətin əlaqələndirilməsi; ətraf mühitin, təbii ehtiyatların mühafizəsinin, onlardan istifadənin planlaşdırılması; ekoloji normalaşdırma; ekoloji ekspertiza; ekoloji nəzarət; ekoloji audit; ekoloji monitorinq və s.

Dövlətin ekoloji idarəetmə funksiyası həm ümumi, həm də xüsusi səlahiyyətli icra hakimiyyəti orqanları tərəfindən yerinə yetirilir. Ümumi səlahiyyətli icra hakimiyyəti orqanları öz səlahiyyətləri çərçivəsində istənilən məsələlər üzrə, o cümlədən ətraf mühitin mühafizəsi və təbiətdən istifadə məsələləri ilə bağlı qərarlar qəbul edirlər. Xüsusi səlahiyyətli orqanlar isə bilavasitə ətraf mühitin mühafizəsi sahəsində idarəçilik funksiyalarını yerinə yetirir.

Beləliklə,dövlətin ekoloji funksiyasının reallaşdırılması bir qrup dövlət orqanları üçün əsas, başlıca vəzifə, digərləri üçün isə başqa funksiyalarla paralel olaraq icra olunan əlavə funksiya kimi çıxış edir. Məhz ekoloji qanunvericiliyin təkmilləşdirilməsi və onun reallaşdırılmasını təmin etmək üçün bu sahədə xüsusiləşdirilmiş dövlət idarəçiliyi orqanlarının yaradılması inkişaf etmiş dövlətlərin keçən əsrin 60-70-ci illərinin təcrübəsini səciyyələndirən əsas xüsusiyyət olmuşdur. Bu sahədə baş icraedici-sərəncamverici orqanlar kimi ABŞ-da 1970-ci ildə yaradılmış Ətraf mühitin mühafizəsi üzrə Agentliyi, Böyük Britaniyada elə həmin ildə yaradılmış Ətraf mühit işləri üzrə Nazirliyi, Yaponiyada 1971-ci ildə yaradılmış Ətraf mühitin mühafizəsi üzrə Agentliyi və s. göstərmək olar.

Göstərilir ki, Azərbaycan Respublikasında bu sahədə ümumi səlahiyyətlər ölkə Prezidenti, Milli Məclis, Nazirlər Kabineti, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müvafiq dövlət idarəetmə orqanları sisteminin təkmilləşdirilməsi, onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə 23 may 2001-ci il tarixli Fərmanı ilə ölkədə uğurla aparılan sturuktur islahatları çərçivəsində bu sahənin ayrı-ayrı istiqamətləri ilə məşğul olan və fəaliyyətlərində bir-birini təkrarlayan dövlət orqanları ləğv edilmiş və onların bazasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmış,18 sentyabr 2001-ci il tarixli Prezident Fərmanı ilə həmin Nazirlik haqqında Əsasnamə təsdiq edilmişdir. Vurğulanır ki, Ekologiya Nazirliyi tərəfindən qarşısında duran vəzifələrin lazımınca yerinə yetirilməsini təmin etmək üçün kadrların peşəkarlıq səviyyəsinin artırılması məqsədlə həm Nazirlik xətti ilə, həm də onun struktur bölmələrində çalışan işçiləri üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birgə kurslar təşkil olunur. Bundan başqa, Dövlət

İdarəçilik Akademiyasında "Ekologiya" ixtisası üzrə idarəçilik kadrlarının hazırlanması da bu məqsədə xidmət edir.

Burada həmçinin icra hakimiyyəti orqanlarının ekoloji idarəetmə fəaliyyətində səmərəli vasitə kimi dövlət ekoloji ekspertizasının vacib yer tutduğu göstərilir və bu baxımdan ekoloji ekspertiza təcrübəsi maraq doğuran ölkələrdən ABŞ-ın, MDB dövlətlərindən Rusiyanın təcrübəsinə nəzər salınır, xüsusiyyətlər göstərilir, təhlillər əsasında ekoloji ekspertiza xəbərdaredici siyasətin reallaşması, ətraf mühitə təsirin qiymətləndirilməsi kimi də nəzərdən keçirilir.

Azərbaycan Respublikasında dövlət ekoloji ekspertizasının aparılmasına xüsusi əhəmiyyət verildiyini, layihələrin ekspertizasının Ulu öndərimiz Heydər Əliyevin sovet dövründə ölkəyə rəhbərlik etdiyi vaxtdan aparıldığını vurğulayan müəllif göstərir ki, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanuna (08 iyun 1999-cu il) və Azərbaycan Prezidentinin bu Qanunun qüvvəyə minməsinə dair imzaladığı Sərəncamına (04.08.1999) görə dövlət ekoloji ekspertizasını müvafiq icraedici hakimiyyət orqanı - Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aparılır.

Bu yarımfəsildə tədqiq olunan problem kontekstində Azərbaycanda həyata keçirilən dövlət siyasətinin səmərəliliyi baxımından Ümummilli liderimiz Heydər Əliyevin ekoloji sahənin milli və dövlət proqramları vasitəsilə idarə edilməsi təcrübəsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi göstərilir, bu sahədə məqsədli-proqramlı yanaşmanın tətbiqi ilə aparılan məqsədyönlü siyasət ətraflı təhlil edilir,Prezident Sərəncamları ilə təsdiq edilmiş Dövlət Proqramları və onların yerinə yetirilməsi istiqamətində görülmüş işlər səciyyələndirilir.

Yarımfəslin sonunda dıювлятин еколоjи функсийасынын йериня йетирилмясиндя Азярбайжан Республикасы Президентинин mцvafiq Фярманы иля тясдиг olunmuш «Йерли исра щакимиййятляри щаггында» Ясаснамядя район, шящяр вя шящяр району исра щакимиййяти башчыларынын бу сащядяки мцяййян едилмиш сялащиййятляри чярчивясиндя йерли исра щакимиййяти органларыnын да гануна уйьун шякилдя иштирак etdiklяri gıюstяrilir, onlarын topladыqlarы tяcrцbя tяhlil olunur.

Беляликля, yarымfяsildя aparылan tяhlillяrя yekun vurularaq gıюstяrilir ki, юлкямиздя яtraf mцhitin мцщафизяsi фяалиййятиндя

вя еколоји tяhlцkяsizliyin tяmin edilmяsindя исра щакимиййяти органларынын ролунун йцксялдилмяси тялябаты эетдикжя артыр. Бу органларын фяалиййятинин тякмилляшдирилмясинин васиб истигамятини hяmчinin еколоји ганунверисиликдян иряли эялян бцтцн идаряетмя функсийаларынын сямяряли йериня йетирилмясинин тямин едилмяси тяшкил едир. Бцтцн бунлар да Rеспубликамызда бу сащядя щяйата кечирилян дювлят сийасятиндя мцвафиг сурятдя юз ифадясини тапыр.

Dissertasiyanın üçüncü fəslinin **“Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanlarının ekoloji siyasət mexanizmində iştirakı”** adlı ikinci yarımfəslində vurğulanır ki, demokratik ölkələrdə ətraf mühitin mühafizəsində, əhalinin ekoloji təhsili və maarifləndirilməsində, cəmiyyətdə ekoloji şüurun və mədəniyyətin formalaşmasında, digər ekoloji problemlərin həllində və bütövlükdə, dövlətin ekoloji siyasətinin həyata keçirilməsində vətəndaş cəmiyyəti institutlarının, xüsusilə də yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin rolu böyükdür. Bu, ilk növbədə onunla bağlıdır ki, ekoloji problemlər bir qayda olaraq lokal xarakter daşıyır və onların həlli bələdiyyələrin yerinə yetirdikləri ekoloji funksiyalar çərçivəsində reallaşır. Bu funksiyalar yerli özünüidarəetmə orqanlarının öz səlahiyyətləri çərçivəsində bələdiyyə birliyi ərazisində əlverişli ətraf mühitin təmin edilməsinə dair kompleks tədbirləri təşkil etmək və həyata keçirmək imkanları və vəzifələri kimi izah edilir.

Azərbaycan Respublikası Konstitusiyasının yerlərdə özünüidarənin təşkilinə həsr olunmuş 142 – ci maddəsində yerli özünüidarənin bələdiyyələr tərəfindən həyata keçirildiyi göstərilir, 144-cu maddədə isə yerli ekoloji proqramların qəbul və icra edilməsi bələdiyyələrin başlıca səlahiyyətlərindən biri kimi müəyyən edilir.[42] Konstitusiya müddəalarına müvafiq olaraq Azərbaycan Respublikasının qanunvericiliyində dövlətin ekoloji siyasətinin həyata keçirilməsində, bu sahədə müvafiq istiqamətlər üzrə işlərin görülməsində bələdiyyələrin iştirakı tənzimlənir. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununda ətraf mühitin mühafizəsi sahəsində yerli özünüidarəetmə orqanlarının

---

[42] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016.

səlahiyyətləri müvafiq qanunvericilik çərçivəsində müəyyən edilmişdir( maddə 5).

Ölkə bələdiyyələrinin fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə qurulmasına 2007-ci il iyun ayının 27-də Bakı şəhərində keçirilmiş bələdiyyə sədrlərinin I Ümumrespublika toplantısı təkan vermişdir. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, akademik R.Mehdiyevin toplantıdakı məruzəsində ölkəmizdə bələdiyyələrin fəaliyyətinin inkişafı və təkmilləşdirilməsi ilə bağlı qarşıya qoyulmuş vəzifələr onların fəaliyyət proqramlarının əsasını təşkil etmişdir.

Vurğulanır ki, dövlətimizin ekoloji siyasətinin uğurla həyata keçirilməsində Sumqayıt, Gəncə, Şəki və bələdiyyələri də fəal iştirak edir.Həmin bələdiyyələr tərəfindən həyata keçirilən layihələr sosial həyatın müxtəlif sahələrini əhatə edərək, insanları narahat edən yerli problemlərin həllinə yönəlməklə, əhalinin sağlamlığının qorunması, şəhər ərazisinin abadlaşdırılması və s. kimi sahələri əhatə edir.

Beləliklə, təcrübənin təhlili göstərir ki, bələdiyyələr ekoloji məsələlərin davamlı inkişafın indikatoru olduqunu nəzərə almaqla, daha geniş və məqsədyönlü yerli ekoloji proqramların işlənib və reallaşdırılmasına üstünlük verməli,bu sahənin ekoloq-kadrlarla təminatına diqqət artırılmalıdır. Bələdiyyələr ətraf mühitin mühafizəsi və yerli ekoloji problemlərin həllində vətəndaşlarla, xüsusilə gənclərlə daha sıx ünsiyyətdə olmalı, sosial tərəfdaşlıq və qarşılıqlı təsir prinsipinə əsaslanmalıdırlar.

Üçüncü fəslin üçüncü yarımfəsli **“Müasir Azərbaycan dövlətinin beynəlxalq ekoloji əməkdaşlığı və onun həyata keçirilməsində icra hakimiyyəti orqanlarının iştirakı”** adlanır. Bu yarımfəsildə ekologiya sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyəti və məzmunu açıqlanır, onun həyata keçirilməsində BMT-nin konstruktiv rolu qeyd olunur. Bu sahədə beynəlxalq əməkdaşlığın fəallaşmasına və dövlətlərin ekoloji siyasətlərinin inkişafına öz təsirini göstərmiş BMT-nin Ətraf Mühit üzrə 1972-ci il Stokholm konfransının, davamlı inkişaf konsepsiyasının rəsmi bəyənildiyi 1992-ci ildə Rio-de-Janeyroda keçirilmiş Ətraf Mühit və İnkişaf üzrə beynəlxalq konfransının, həmçinin dünya dövlətlərinin bu sahədəki əməkdaşlığının inkişaf etdirilməsinə öz töhvəsini vermiş 2002-ci ildə Yohannezburq, yenə də bu məsələlərlə bağlı 2012-ci il “Rio+20”

beynəlxalq forumların sənədləri nəzərdən keçirilir, iqlimin dəyişməsi ilə bağlı Kioto protokolu və Paris razılaşmasının məqsəd və dövlətlər qarşısında qoyduqları vəzifələr açılıb göstərilir.

Burada Azərbaycan Respublikasının beynəlxalq ekoloji əməkdaşlıqda iştirakı, onun qoşulduğu və ratifikasiya etdiyi beynəlxalq konvensiya və sazişlər ətraflı təhlil olunur, müqavilələrin bağlanması və həyata keçirilməsində müvafiq icra hakimiyyəti orqanı olan Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştiakı, onun "Beynəlxalq əməkdaşlıq" şöbəsinin əsas vəzifələri nəzərdən keçirilir, Azərbaycan Respublikasının bu sahədə reallaşdırdığı müxtəlf ölkələrlə ikitərəfli əməkdaşlığı o cümlədən Almaniya, Kanada, Danimarka, MDB dövlətlərindən Qazaxıstan, Ukrayna, Moldova və s., regional səviyyədə isə Türkiyə, Gürcüstan, Rusiya və İran kimi qonşu dövlətlərlə əməkdaşlığı təhlil edilir. Bununla yanaşı Azərbaycanın Xəzəryanı dövlətlərlə Xəzərin ekoloji problemlərinin həlli ilə bağlı əməkdaşlığı tədqiq edilir, bu sahədə imzalanmış konvensiyalar təhlil olunur, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin beynəlxalq ekoloji əməkdaşlıq çərçivəsində uğurla həyata keçirdiyi layihələr işıqlandırılır.

Burada müəllif qeyd edir ki, digər sahələrdə olduğu kimi, beynəlxalq ekoloji əməkdaşlıq da dövlətlərə qarşı beynəlxalq ekoloji hüquq çərçivəsində məsuliyyətə cəlb etmə tədbirlərini nəzərdə tutur. Bu baxımdan da beynəlxalq hüquq normaları və konvensiyaların tələblərinə məhəl qoymayan, uzun illər Azərbaycan təbiətinə qarşı ekosoyqırım siyasətini ardıcıl həyata keçirən təcavüzkar Ermənistan dövləti beynəlxalq səviyyədə məsuliyyətə cəlb olunmalıdır.

Beləliklə, Cənubi Qafqaz regionunda yaranmış ekoloji vəziyyət və mövcud ekoloji problemlər həm regional, həm də milli səviyyədə ciddi narahatlıq doğurur. Odur ki, regiondakı münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi şəraitində bu sahədəki regional əməkdaşlıq genişlənməklə mövcud ekoloji problemlərin həllinə xidmət etməlidir.

Dissertasiyanın üçüncü fəslinin **"Dövlətin ekoloji siyasətində əhalinin ekoloji mədəniyyətinin formalaşması və məlumatlılığının artırılmasıproblemləri" adlı dördüncü yarımfəslində** vurğulanır ki, əhalinin ekoloji mədəniyyətinin formalaşması müasir dövlətin ekoloji siyasətinin vacib istiqamətini təşkil edir. Ekoloji siyasət, bir tərəfdən,

cəmiyyətin mövcud ekoloji şüuru və ekoloji mədəniyyətinə əsaslanır, digər tərəfdən isə, onların formalaşması və inkişafına məqsədyönlü şəkildə təsir edir. Məhz bu səbəbdən ilk növbədə mürəkkəb olan ekoloji mədəniyyətin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Ekoloji mədəniyyətin mürəkkəb və çoxtərəfli bir fenomen oolduğunu göstərən müəllif ona müxtəlif aspektdən nəzər salır. Belə ki, fəlsəfi aspektdən baxdıqda, ekoloji mədəniyyət insanın təbiətdəki təyinatını, yerini müəyyən edir, təbiətə təsir edən insan, eyni zamanda onun məhsuludur. Estetik aspektdən ekoloji mədəniyyət təbiətdəki gözəlliklərin və harmoniyanın insan tərəfindən qavranılmasını nəzərdə tutur. Siyasi aspektdən ekoloji mədəniyyət insanın təsərrüfat fəaliyyəti və təbiətin mövcud vəziyyəti arasında ekoloji tarazlığın təmin edilməsinə imkan verir. Hüquqi aspektdən baxdıqda isə, ekoloji mədəniyyət insan fəaliyyətini insan-təbiət münasibətlərini tənzimləyən hüquqi normalar, qanunvericilik aktları çərçivəsində məhdudlaşdırır və s. Bütün bu aspektlər arasındakı əlaqələr ekoloji mədəniyyətin mahiyyətini müəyyən edir.

Başqa sözlə, ümumi mədəniyyətin bir tərkib hissəsini təşkil edən ekoloji mədəniyyət onun digər elementləri ilə də üzvü şəkildə bağlı olmaqla, onlarla qarşılıqlı əlaqədədir. Məsələn, fəlsəfi mədəniyyət insana özünün təbiət və cəmiyyətin məhsulu kimi təyinatını başa düşməyə və dərk etməyə imkan verirsə, siyasi mədəniyyət insanların təsərrufat fəaliyyəti və təbiətin durumu arasında ekoloji tarazlığın təmin edilməsinə imkan verir, hüquqi mədəniyyət isə, insanı təbiətlə qanunla icazə verilmiş qarşılıqlı əlaqələri çərçivələrində saxlayır.

Ekoloji mədəniyyətin formalaşması mexanizmləri arasında əsas yeri təhsilin bütün səviyyələrini, həmçinin kadrların ixtisasının artırılması və yenidən hazırlanmasını, elmi biliklərin təbliğini əhatə edən məqsədyönlü ekoloji təhsil sistemi tutur. Ekoloji təhsil YUNESKO və BMT-nin ətraf mühitin mühafizəsinə dair Proqramında insan və təbiətin qarşılıqlı münasibətlərinin ahəngini şərtləndirən əsas vasitə kimi irəli sürülmüşdür.

Ekoloji maarifləndirmə və ekoloji təhsil sahəsində dövlətin ekoloji siyasətinin məqsədi baxımından insanlarda ekologiya haqqında, təbii ehtiyatların dəyəri, davamlı inkişaf strategiyasının əsas müddəaları, ətraf mühitin, sağlamlığının qorunması problemləri və s. barədə təsəvvürlərin, təbiətə hümanist münasibətin formalaşdırılması,

əhaliyə ekoloji cəhətdən təhlükəsiz təbiətdən istifadə üsullarının mənimsədilməsi zəruridir.

Azərbaycan Respublikasında əhalinin ekoloji təhsili və maarifləndirilməsi, dövlətin ekoloji siyasətinin vacib tərkib hissəsini təşkil edir. Azərbaycan Respublikasının "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" 10 dekabr 2002-ci il tarixli Qanunu cəmiyyətdə ekoloji şüurun, ekoloji mədəniyyətin formalaşmasına xidmət edir. Qanunda əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində dövlət siyasətinin prinsipləri təsbit olunmuşdur (maddə 4).Qanunun müsbət xüsusiyyətlərindən biri də odur ki, onun əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində idarəetmə məsələlərinə həsr olunmuş ikinci fəslində bu sahədə dövlət və yerli özünüidarəetmə orqanlarının qarşısına konkret vəzifələr qoyulur ki, bu da müvafiq sahə üzrə dövlət tənzimlənməsinin daha səmərəli həyata keçirilməsinə imkan yaradır.

Ekoloji biliklərin yayılmasında, əhalinin ekoloji tərbiyəsində, eləcə də ekoloji maarifləndirilməsi və məlumatlandırılmasında KİV-in üzərinə böyük vəzifələr və məsuliyyət düşür. Jurnalistika geniş kütlələrin, oxucu və tamaşaçı auditoriyasının ekolojiləşmiş dünyagörüşünün formalaşmasında aparıcı yer tutur. Məhz bunu nəzərə alaraq müəllif Azərbaycanda bu məsələlərə KİV-in münasibətini öyrənmiş və müəyyən etmişdir ki, ölkədə çıxan mərkəzi və rayon qəzetlərində ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizlik problemlərinə, dövlətimizin bu sahədə apardığı siyasətə və gördüyü işlərə həsr edilmiş geniş materiallar işıqlandırılır, çoxlu sayda məqalələr dərc olunur ki, bu da Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə ardıcıl və səmərəli şəkildə həyata keçirdiyi çoxşaxəli dövlət siyasətinin, bu sahəyə daim göstərdiyi böyük diqqət və qayğının nəticəsidir.

İşin **"İctimai birliklər dövlətin ekoloji siyasətinin aktorları kimi" adlanan dördüncü fəslinin "İctimai birliklərin ekoloji siyasət mexanizmində başlıca təyinatı və fəaliyyət istiqamətləri" adlı birinci yarımfəslində** bu sahədəki təhlillər əsasında təbiəti mühafizə hərəkatının yaranması və inkişafında bir neçə mərhələ ayrılır, ictimai birliklərin ekoloji siyasət mexanizmində başlıca təyinatının ilk növbədə müasir cəmiyyətdə hər bir insanın həyati vacib maraqlarına toxunan ekoloji hüquqların təmin edilməsindən ibarət

olduğu, bundan da onların bu mexanizmdə iştirakının irəli gəldiyi vürğulanır. Qeyd olunur ki, insan və vətəndaşların ekoloji hüquqları beynəlxalq normalara müvafiq olaraq inkişaf etdirilir. BMT-nin 1992-ci il Rio-de-Janeyro konfransında qəbul olunmuş Bəyannamədə insanların təbiətlə harmoniyada olmaqla yaşamaq və məhsuldar işləmək hüququna malik olduqları bəyan edilmişdir.Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş və maddələrinin üçdə birini təşkil edən insan - vətəndaş hüquqları sistemində ekoloji hüquqlar təsbit olunmuş, Konstitusiya müddəalrına müvafiq olaraq ekoloji hüquqlar «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanunun səkkizinci fəslində daha da konkretləşdirilir. Bu zaman digər ölkələrin də, o cümlədən Rusiyanın, Ukraynanın, Qazaxıstannın Konstitusiyalarında təsbit olunmuş ekoloji hüquqlar nəzərdən keçirilməklə, insanın-vətəndaşın bu hüquqlarının tanınmasının əhəmiyyəti açılıb göstərilir. Qeyd olunur ki, insan və vətəndaşın ekoloji hüquqlarının tanınması və müdafiəsi ictimai birliklərlə yanaşı, onlara riayət olunması dövlət hakimiyyəti orqanları (qanunverici, icraedici və məhkəmə), həmçinin yerli özünüidarəetmə orqanları qarşısında duran vəzifələrdən birini təşkil edir, bütün bunlar isə ictimai birliklərin bu sahədə dövlət və bələdiyyə orqanları ilə əməkdaşlıq etməsinin zəruri olduğunu göstərir.

Burada həmçinin ictimai ekoloji birliklərin fəaliyyət istiqamətləri də təhlil olunur. Onlar dövlətin ekoloji siyasətinin formalaşmasında, onun reallaşmasında iştirak etməklə, təbiəti mühafizə qanunvericiliyinə riayət olunmasına ictimai nəzarətin həyata keçirilməsi, ekoloji informasiyanın toplanması və yayılması, əhalinin ekoloji mədəniyyətinin formalaşdırılması məqsədilə ekoloji təhsil və tərbiyə işlərinin təşkil edilməsi və s. kimi istiqamətlərdə fəaliyyət göstərirlər.

**“Dövlətin ekoloji siyasətinin həyata keçirilməsində ictimai birliklərin iştirakı: dünya təcrübəsinin təhlili” adlanan ikinci yarımfəslində** bir sıra dünya ölkələrinin, o cümlədən Almaniyanın, ABŞ-ın, Fransanın, Norveçin, MDB ölkələrindən Rusiyanın, Belarusun təcrübəsi əsasında dövlətin ekoloji siyasətinin həyata keçirilməsi mexanizmində “yaşıllar” partiyalarının, milli, regional və beynəlxalq səviyyədəki ekoloji QHT-lərin iştirakı nəzərdən keçirilir, müqayisələr aparılır. Məsələn, göstərilir ki, ABŞ-da «Yaşıllar»

Partiyası ölkə «yaşıllarının» əsas milli yaşıllar partiyası olmaqla, siyasi sistemdə əsas üçüncü partiyalar sırasında (Libertarian və Konstitusiya partiyaları ilə yanaşı) fəaliyyət göstərir və əsasən də yerli səviyyəli seçkilərdə mandat əldə edə bilir, seçkili vəzifələr tuturlar. Lakin bütün bunlara baxmayaraq, üçüncü siyasi partiya kimi ABŞ "Yaşıllar" Partiyası iki aparıcı partiyaya – Demokratlar və Respublikaçılara real rəqabət təşkil edə bilmədiyi vurğulanır və bunun səbəbləri göstərilir.

Burada siyasi partiyalarla yanaşı ekoloji siyasətin aktorlarından biri kimi beynəlxalq, regional və milli səviyyələrdə fəaliyyət göstərən ictimai ekoloji təşkilatların, o cümlədən Qrinpis, Ümumdünya Vəhşi Təbiət Fondunun, Beynəlxalq Sosial Ekoloji İttifaqın, Ümumdünya (Beynəlxalq) Təbiəti Mühafizə İttifaqının, regional ekoloji birliklərdən Heydər Əliyev Fondunun təşəbbüşü ilə yaradılmış "Regional inkişaf" İctimai Birliyin, Azərbaycan Regional İnkişaf Mərkəzinin fəaliyyəti nəzərdən keçirilmişdir.

Dünya dövlətlərinin təcrübəsinin təhlili əsasında müəllif göstərir ki, ekoloji siyasətin subyekti kimi siyasi təşkilatlar (partiyalar) özlərinin proqramını işləyəndə ekoloji problemləri kənarda qoya bilmir və onu təbliğ edərkən əhalinin ekoloji şüurunun formalaşmasına təsir edir, seçkilərdə qalib gəlmiş partiyalar ekoloji siyasət konsepsiyasının işlənilməsində və onun qanunlar əsasında həyata keçirilməsində iştirak edirlər. Onlar ekoloji dəyərlər və maraqların daşıyıcısı kimi çıxış etməlidirlər. Bütövlükdə,ictimai təşkilatların rolu ekoloji əhəmiyyətli qərarların işlənilməsində, ekoloji qanunvericiliyin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsində, təbiəti mühafizə tədbirlərində, əhalinin ekoloji tərbiyəsi və maarifləndirilməsində iştirak etməsi ilə müəyyən olunur.

Bu fəslin "**Müasir şəraitdə Azərbaycanda ictimai ekoloji hərəkatın xüsusiyyətləri və inkişaf perspektivləri"adlı üçüncü yarımfəslində** müasir şəraitdə Azərbaycanda Konstitusiyanın və ekoloji qanunvericiliyin müddəalarına müvafiq olaraq ictimai birliklərin azad fəaliyyəti üçün əlverişli şəraitin yaradıldığı, dövlətimizin başçısı İlham Əliyev tərəfindən ekoloji vəziyyətin yaxşılaşdırılması işlərinə ictimaiyyətin qoşulmasına yüksək qiymət verildiyi vurğulanır, ictimai ekoloji hərəkatın xüsusiyyətləri və inkişaf perspektivləri təhlil olunur. Göstərilir ki, Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında» Qanununda bu

sahədə əhalinin və ictimai birliklərin iştirakı *ətraf mühitin mühafizəsinin əsas prinsipləri* sırasında təsbit edilir, ətraf mühitin mühafizəsi sahəsində ictimai birliklərin konkret hüquqları göstərilir və həmin hüquqların reallaşması çərçivəsində onlara dövlətin ekoloji siyasətinin həyata keçirilməsində müvafiq formalarda iştirak etmək imkanları verilir.

Bu yarımfəsildə həmin məsələlərə öz fəaliyyətində geniş yer verən siyasi partiya kimi Ulu öndər Heydər Əliyevin sədriyi ilə yaranmış, hazırda isə Azərbaycan Respublkasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında dinamik şəkildə inkişaf edən Yeni Azərbaycan Partiyası göstərilir, onun ekoloji sahədə reallaşdırdığı geniş fəaliyyət istiqamətləri və həyata keçirdiyi layihələr nəzərdən keçirilir.

Hazırda ölkəmizdə vətəndaş cəmiyyətinin üçüncü sektorunun təmsilçiləri olan ekoloji qeyri-hökümət təşkilatlarının həm yerli və milli, həm də regional, beynəlxalq səviyyələrdə fəaliyyət göstərdiyini vurğulayan müəllif, onların təsnifatını vermiş və fəaliyyət sahələrini göstərmişdir.Bu zaman xüsusi olaraq ölkədə ekoloji tarazlığın qorunub saxlanılması, bu istiqamətdə maarifləndirmə işlərinin aparılması, ətraf mühitin qorunmasında Azərbaycanın birinci Vitse - Prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun xidmətləri qeyd edilir, dünya ictimaiyyətinin ekoloji problemlərə və ətraf mühitin mühafizəsi zərurətinə diqqətinin cəlb edilməsi istiqamətində Heydər Əliyev Fondunun Vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi İDEA - "Ətraf mühitin mühafizəsi üzrə hərəkətlər üçün Beynəlxalq dialoq" beynəlxalq gənclər kampaniyası çərçivəsində görülən işlər işıqlandırılır. Burada həmçinin ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyətinin təmsilçiləri olan bir sıra digər ictimai birlklərin, ekoGHT-lərin, o cümlədən Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin, “Rüzgar” Ekoloji İctimai Birliyinin, ekoloji QHT-lərin fəaliyyətinin əlaqələndirilməsi istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Ekoloji Şurasının və Milli QHT-lər Forumunun fəaliyyəti də təhlil edilir. Ümumi bir qənaətə gəlinir ki, ölkədə ictimai ekoloji birliklərin səfərbəredici qabiliyyətinin artırılmasına ehtiyac duyulur və onlar

formalaşmış rəqabətli ekosiyasi məkanda hələlik özlərinin siyasi təyinatını tam müəyyən edə bilmirlər.

**Nəticədə** ümumiləşdirmələr aparılmış, onların əsasında nəzəri və praktiki əhəmiyyət kəsb edən tövsiyə və təkliflər irəli sürülmüşdür.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:


1.Azərbaycan Respublikasının ekoloji siyasəti. Monoqrafiya. Bakı: "Sabah", 2014. 19,5 ç.v.

2.Формирование экологической культуры личности. Kitabca. Баку, БГУ, 1996. 2,0 ç.v.

3.Некоторые аспекты экологической политики Азербайджанской Республики в современных условиях// Экология, философия, культура. Сборник статей Вып. 11, Баку, Институт Философии и Права АН Азербайджана, 1996, с. 64-72.

4.Политическая экология как новая ступень гуманитарного образования // Azərbaycanda keçid dövrü və siyasi elmlər problemi. Тезисы к научно-теоретической конференции. Баку, Западный Университет, 1997, с. 25-27

5.Ekologiya və siyasət. Kitabca. Bakı, "İnam", 1999.1,4 ç.v.

6.Vətəndaşların ekoloji hüquq və vəzifələri //"Qanunçuluq" jurnalı. Bakı, 2001, N 8, s. 18-20

7.Milli təhlükəsizliyin ekoloji aspekti//Sosial siyasi problemlər. Elmi məqalələr məcmuəsi. Bakı, AMEA Beynəlxalq münasibətlər İnstitutu. Buraxılış 6, 2001, s. 63-65

8.Dövlətin ekoloji funksiyasının hüquqi mexanizmi//Sosial siyasi problemlər. Elmi məqalələr məcmuəsi. Bakı, AMEA Beynəlxalq münasibətlər İnstitutu. Buraxılış 6. 2001, s. 66-67

9.Heydər Əliyev və Azərbaycanda ekoloji təhlükəsizliyin idarə edilməsi // "XX-XXİ: iki əsrin nadir dövlət xadimi və lideri"mövzusunda elmi sessiyan.materialları. 22 aprel 2003-cü il. DİA, Bakı,2003, s. 145-149

10. Keçid cəmiyyətində ekoloji təhlükəsizlik siyasətinin formalaşmasının bəzi aspektləri // Beynəlxalq Elmi konfransın materialları. 22-23 may 2003-cü il. Bakı, Qərb Universiteti, 2003, s. 267-270

11. İcra hakimiyyəti orqanlarının funksiyaları ekoloji qanunvericilik kontekstində//"Qanunçuluq" jurnalı, N 6, 2003. s. 61-63

12. Təbiəti mühafizə fəaliyyətinin dövlət tənzimlənməsi problemləri // Sosial-siyasi problemlər. Məqalələr məcmuəsi. X buraxılış, Bakı, 2004, s. 233-235

13. Müasir dünyada ekoloji problemlərin həlli strategiyasının siyasi aspektləri//Sosial-siyasi problemlər (Elmi məqalələr məcmuəsi). AMEA. Fəlsəfə və siyasi – hüquqi tədqiqatlar İnstitutu Buraxılış 11. Bakı, 2005, s. 518-522

14. Новое видение экологии в модели устойчивого развития// AMEA. Elmi xəbərlər. 2009. № 10, с. 242-249

15. Формирование экологической культуры как приоритетное направление экологической политики государства //Межкультурные коммуникации. Международное научно-периодическое издание. Тбилиси, 2009, № 8, с. 240-246

16. Qlobal maliyyə böhranı və ekologiya//«Qlobal maliyyə böhrani və dövlət idarəetmə sistemində antiböhran siyasət:dünya təcrübəsi və azərbaycan modeli» mövzusunda beynəlxalq elmi-praktiki konfransin materialları. 04 iyun 2010-cu il, DİA, Bakı, 2010, s. 197-200

17. Ekoloji sahədə dövlətin informasiya siyasətinin bəzi məsələləri // Beynəlxalq elmi- praktiki konfransın materialları. 26-28 aprel 2010-cu il, Bakı, 2010.s.232-234

18. Экологические права человека и роль ветвей власти в их реализации//Материалы V международного форума стран-партнеров в области подготовки и переподготовки кадров для государственной и муниципальной службы. Бишкек, 16-17 декабря 2010 г. Вестник Академии Управления при Президенте Кыргызской Республики.2011, № 12, с. 463-466.

19. Dövlət ekosiyasi proseslərin aparıcı aktoru kimi Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. 2011, № 3. S. 160-168

20. Davamlı inkişafa keçid siyasəti : dünya dövlətləri və Azərbaycanın təcrübəsi//«Geostrategiya». 2011. №4(04). S.20-27.

21. Концепция устойчивого развития как парадигма современной экологической политики//Межкультурные коммуникации. Международное научно-периодическое издание. Тбилиси, 2011, № 2, с. 2002-2007.

22. Государственное экологическое управление и его особенности в Азербайджанской Республике//Dövlət idarəçiliyinin təkmilləşdirilməsi yaxşi idarəçiliyə doğru" mövzusunda Beynəlxalq konfransın materialları.DİA. 05-06 dekabr 2011-ci il. Bakı, 2012.

23. Dövlətin ekoloji siyasəti: əsas məzmunu və müasir şəraitdə xüsusiyyətləri // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. 2012, № 3, s.165-172

24. Государственное экологическое управление как инструмент природоохранной политики // «Geostrategiya».2012. №5(11).S. 10-13

25. Cənubi Qafqazda tranzit su hövzələrinin çirklənməsi regionun ekoloji təhlükəsizliyinə ciddi təhdid kimi // "NATO-nun Yeni strateji konsepsiyası və Cənubi Qafqazda Təhlükəsizlik çağırışları" mövzusunda Beynəlxalq konfransın materialları.AMEA-nın İnsan Hüquqları İnstitutu. 05-06 dekabr 2013.Bakı, 2013, s. 122-123

26. Ümummilli lider Heydər Əliyevin ekoloji siyasət strategiyası//Ulu öndər Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 06 may 2013-cü il. S.111-120

27. Cənubi Qafqazda ekoloji təhlükəsizlik problemləri //Sumqayıt Dövlət Universitetinin Xəbərləri. 2013, № 4, s.78-82

28. Ekoloji modernləşmənin nəzəri-siyasi aspektləri və Azərbaycan Respublikasında onun xüsusiyyətləri//İnsan və biosfer (MaB, YUNESKO). Azərbaycan Milli Komitəsinin əsərləri. Bakı, «Təhsil», 2013. 360 səh. s.99-120

29. Azərbaycan Respublikasında dövlətin ekoloji siyasətinin həyata keçirilməsində bələdiyyələrin rolu//«Sivilizasiya» jurnalı. Bakı,Avrasiya Universiteti, 2014, № 2, s.140-147

30. Ekoloji modernləşmə ətraf mühitin mühafizəsi siyasətinin prioritet istiqaməti kimi//Tarix və onun problemləri. 2014, № 1, s.182-189

31. Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının ekoloji siyasətinin istiqaməti kimi// «Geostrategiya».2014. № 2. S. 17-22

32. Некоторые вопросы правового регулирования экологических отношений в Азербайджанской Республике: политические аспекты // Право и политология. Международный научный журнал. Кишинев (Молдова), 2014, № 25, с.26-29

33. Ekoloji siyasətin müasir dövlətin ümumi siyasətinin strukturunda yeri//“Sivilizasiya”. Elmi – nəzəri jurnal. 2015, № 3.-S. 79 – 85

34. Məqsədli proqramlar dövlətin ekoloji siyasətinin həyata keçirilməsi vasitəsi kimi//İnsan və biosfer (MaB, YUNESKO). Azərbaycan Milli Komitəsinin əsərləri. Bakı, «Təhsil», 2015. № 10. 216 s. s.171-190

35. Müstəqil Azərbaycan dövlətinin ekoloji siyasətinin formalaşmasında Heydər Əliyevin rolu // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. 2015, № 3, s.119-130

36. Davamlı inkişaf konsepsiyasının müasir dövlətin ekoloji siyasət paradiqmasının formalaşmasına təsiri // Post2015:Qlobal çağırışlar şəraitində Azərbaycan Respublikasının Davamlı İnkişafı, 15 aprel 2015, s. 198-207

37. Müstəqil Azərbaycan dövlətinin ekoloji siyasətinin məzmunu və reallaşması istiqamətləri // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. 2016, № 4, s.165-172

38. Ekoloji sahədə dövlət tənzimlənməsinin təyinatı və həyata keçirilməsi mexanizmi İnsan və biosfer (MaB, YUNESKO). Azərbaycan Milli Komitəsinin əsərləri.2017, №4, s. 107-120

39. Azərbaycan Respublikasının davamli inkişaf prinsiplərinə söykənən ekoloji siyasəti //Beynəlxalq konfransın materialları. DİA. 20 iyun 2017-ci il

40. Dövlətin ekoloji siyasətinin həyata keçirilməsində ictimai birliklərin iştiraki//Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. 2017, № 4.s.199-210

41. Targeted program approach in state's ecological policy and its application in the Republic of Azerbaijan (Dövlətin ekoloji siyasətinin həyata keçirilməsində məqsədli - proqram yanaşması və onun Azərbaycan Respublikasında tətbiqi) // Sustainability -Open Access Journal, Volume 10, Issue 4, 2018. Basel, Switzerland. Çapda

42. Qlobal ekoloji böhran və onun Azərbaycanda təzahürü: problemin sosial-siyasi aspektləri // «Geostrategiya». 2018. № 3. Çapda

43. Dövlətin ekoloji siyasət mexanizmində ictimai birliklərin başlıca təyinatı və fəaliyyət istiqamətləri // “Sivilizasiya”, 2018, №1,s.136-140

**С.И.Мамедова**

# Экологическая политика государства в современных условиях: механизмы формирования и реализации (на примере Азербайджанской Республики)

## Резюме

Диссертационная работа состоит из введения, четырех глав, пятнадцати параграфов, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы исследования, анализируется степень научной разработанности проблемы, определяются объект, предмет, цель и задачи исследования, его теоретико-методологические основы, эмпирическая база, формулируются положения, выражающие научную новизну исследования, а также выносимые на защиту, показывается теоретическая и практическая значимость работы.

В первой главе «Проблема охраны окружающей среды в современном мире и политика по её разрешению: теоретико-концептуальный анализ» анализируются сущность и социально-политические аспекты глобального экологического кризиса и его проявления в Азербайджанской Республике. При этом подчеркивается, что ухудшению экологической ситуации в Азербайджане и регионе в целом способствуют особенно со умышленные загрязнения трансграничных водных басейнов Азербайджана со стороны Армении, также продолжающаяся уже 30 лет агрессия армянского государства против Азербайджана, и проводимая ею политика экоцида на захваченных исконных азербайджанских территориях, в результате которой природный комплекс здесь беспощадно уничтожается. Вводится в научный оборот и раскрывается сущность ещё не использованных в Азербайджанской политической науке и мало использованных в политологии понятия «экополитический процесс», «экополитическое пространство» и др., изучается место экологической политики в структуре общей политики государства и влияние на её формирование концепции устойчивого развития.

Во второй главе- «Стратегия экологической политики Азербайджанской Республики и особенности её реализации на современном этапе» прежде всего, изучается роль Общенационального лидера Гейдара Алиева в формировании экологической политики независимого Азербайджана, которая на качественно новом уровне продолжается его достойным преемником Президентом Азербайджанской Республики Ильхамом Алиевым.

В данной главе исследуются политические аспекты правового регулирования экологических отношений в Азербайджанской Республике, в этом ракурсе анализируются соответствующие положения Конституции страны и экологического законодательства, отражающие основные направления государственной политики в данной сфере, в сравнительном аспекте изучается опыт Азербайджана и ряда других стран, в частности США, Канады, Германии, Франции, России и др. по переходу к экологобезопасному устойчивому развитию. Особое место отводится исследованию экологической политики Азербайджанского государства и механизма её осуществления на современном этапе. При этом, проводится аргументированный анализ современной экологической политики Азербайджана, осуществляемой под руководством Президента Ильхама Алиева параллельно и в единстве с политикой социально-экологическому развитию страны. Изучаются вопросы обеспечения экологической безопасности, как составной части национальной безопасности, рассматривается проблема ее взаимосвязи с региональной экологической безопасностью. В этом контексте навязанный Азербайджану армяно-азербайджанский, нагорно-карабахский конфликт, умышленное загрязнение Арменией трансграничных рек - Куры и Араза, находящаяся на оккупированной территории Сарсангское водохранилище, а также продолжающаяся эксплуатация находящейся в аварийном состоянии Метцаморской АЭС оцениваются как угрозы экологической безопасности Азербайджана и региона в целом. В этой связи предлагается механизм привлечения к ответственности Армении и бывшего её руководства с участием международных организаций.

Третья глава - «Роль органов исполнительной власти и местного самоуправления в осуществлении экологической политики современного Азербайджанского государства» начинается с изучения основных функций органов исполнительной власти в этом механизме и опыта Азербайджана и некоторых других стран по их выполнению. Исследуется также деятельность органов местного самоуправления Азербайджана и некоторых других стран в данной сфере. Здесь изучается и международное экологическое сотрудничество Азербайджанской Республики, а также участие органов исполнительной власти, в частности, Министерства Экологии и Природных Ресурсов в этом процессе. Завершается данная глава изучением на опыте Азербайджанской Республики вопросов формирования экологической культуры населения, повышения уровня его экологической информированности, как важного направления экологической политики государства, анализируется роль системы экологического образования и воспитания, а также СМИ, рекламы и интернета в экологическом просвещении и повышении информированности населения в данной сфере.

В четвертой главе - «Общественные объединения как акторы экологической политики государства» анализируются назначение и направления деятельности общественных объединений в механизме экологической политики государства, опыт участия политических партий и НПО в этом механизме. На основе изучения опыта Азербайджана и ряда других стран, в том числе Германии, США, Норвегии, России и др., на основе сравнения по конкретным критериям выявляются особенности и перспективы развития «зеленого» движения и участия «зеленых партий» в политических процессах в этих странах.

В Заключении подводятся итоги исследования, формулируются обобщающие выводы и на их основе выдвигаются предложения и рекомендации теоретического и практического значения.

**S.I.Mammadova**

## Environmental policy of the state in modern conditions: mechanisms of formation and implementation (on the example of the Republic of Azerbaijan)

### Summary

This work consists of an introduction, four chapters, fifteen paragraphs, conclusion and bibliography.

The introduction justifies the relevance of the research topic, analyzes the degree of scientific elaboration of the problem, identifies the object, subject, purpose and objectives of the research, its theoretical and methodological foundations, empirical base, formulates the statements expressing the scientific novelty of the research, as well as the defenders, shows the theoretical and practical significance of the work.

The first chapter "The problem of environmental protection in the modern world and the policy of its resolution: a theoretical-conceptual analysis" analyzes the essence and socio-political aspects of the global environmental crisis and its manifestation in the Republic of Azerbaijan. At the same time, it is emphasized that the deliberate pollution of the transboundary water basins of Azerbaijan by Armenia, the aggression of the Armenian state against Azerbaijan and the ecocide policy pursued by Armenia in the occupied original territories of Azerbaijan, which resulted in the natural complex here is mercilessly destroyed. The essence of the concepts of "ecopolitical process", "ecopolitical space" and others not used in political science in Azerbaijan's political science is introduced into scientific circulation and reveals the place of environmental policy in the structure of the general policy of the state and its influence on the formation of the concept of sustainable development.

The second chapter, "The Strategy of the Environmental Policy of the Republic of Azerbaijan and Features of Its Implementation at the Present Stage," first studies the role of National Leader Heydar Aliyev in shaping the environmental policy of independent Azerbaijan, which continues at a qualitatively new level by his

worthy successor, President of the Republic of Azerbaijan Ilham Aliyev.

This chapter examines the political aspects of the legal regulation of environmental relations in the Republic of Azerbaijan, analyzes the relevant provisions of the country's Constitution and environmental legislation, reflecting the main directions of state policy in this area, examines in a comparative aspect the experience of Azerbaijan and several other countries, in particular the United States, Canada, Germany, France, Russia and others on the transition to ecologically safe sustainable development. A special space is given to the study of the characteristics of the environmental policy of the Azerbaijani state at the present stage. When carried out under the leadership of President Ilham Aliyev in parallel and in unity with the policy of socio-environmental development of the country. We study the issues of ensuring environmental safety as an integral part of national security, we consider the problem of its relationship with regional environmental safety. In this context, the Armenian-Azerbaijani, Nagorno-Karabakh conflict imposed on Azerbaijan, the deliberate pollution by Armenia of transboundary rivers - the Kura and Araz, located in the occupied territory of the Sarsang reservoir, as well as the continued operation of the Mitstsamskoy NPP in emergency condition are assessed as threats to the environmental safety of Azerbaijan and the South region Caucasus as a whole. In this regard, a mechanism is proposed for bringing responsibility to Armenia and itswith the participation of international organizations.

The third chapter - “The role of the executive authorities and local self-government in the implementation of the environmental policy of the modern Azerbaijan state” begins with a study of the main functions of the executive authorities in this mechanism, the experience of Azerbaijan, as well as a number of developed countries in their implementation; and some other countries in this field. It also studies the international environmental cooperation of the Republic of Azerbaijan, as well as the participation of the executive authorities, in particular, the Ministry of Ecology and Natural Resources in this process. This chapter concludes with the study of the experience of the Republic of Azerbaijan on the formation of the environmental culture of the population, raising its environmental

awareness as an important direction of the state's environmental policy, examines the role of the environmental education and training system, as well as the media, advertising and the Internet in environmental education and awareness raising this area.

The fourth chapter - "Public associations as actors of the state environmental policy" analyzes the purpose and activities of public associations in the state environmental policy mechanism, participation of political parties and NGOs in this mechanism. On the example of Azerbaijan and a number of other countries, including Germany, the USA, Norway, Russia, etc., based on a comparison of specific criteria, the features and prospects for the development of the "green" movement and the participation of "green parties" in political processes in these countries are identified.

The Conclusion summarizes the results of the research, formulates generalizing conclusions, and offers and recommendations of theoretical and practical significance are put forward on their basis.

Format: 60x84 $^{1}/_{16}$. Tiraj 100. Sifariş 200

Ecoprint nəşriyyatı

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ**
**ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**СЕВИЛЬ ИМАМВЕРДИ КЫЗЫ МАМЕДОВА**

# ЭКОЛОГИЧЕСКАЯ ПОЛИТИКА ГОСУДАРСТВА В СОВРЕМЕННЫХ УСЛОВИЯХ: МЕХАНИЗМЫ ФОРМИРОВАНИЯ И РЕАЛИЗАЦИИ (НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ)

**Специальность: 5904.01 – «Политические институты и системы»**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора политических наук**

**Баку – 2018**